DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 04 (321) / APREL 2018-Cİ İL



Prezident seçkiləri Azərbaycan xalqının iradəsini əks etdirib. Azərbaycan xalqı görülən işlərə yüksək qiymət vermişdir, görülən işlərə səs vermişdir. İnkişafa, tərəqqiyə, təhlükəsizliyə, gələcək inkişafımıza səs vermişdir. Seçkilər ədalətli və şəffaf şəkildə keçirilmişdir. Seçkilərdən əvvəl yerli və beynəlxalq təşkilatlar tərəfindən keçirilmiş rəy sorğuları, seçkilər günü yenə də beynəlxalq və yerli təşkilatlar tərəfindən keçirilmiş "exit-poll"lar seçkilərin rəsmi nəticələri ilə üst-üstə düşür. Bu, bir daha onu göstərir ki, seçkilər xalqımızın iradəsini, onun fikirlərini əks etdirir.

Mən 2003-cü ildə, prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər mənə xalq etimad göstərərsə, mən Ulu Öndər Heydər Əliyev siyasətinə sadiq qalacağam, bu siyasəti davam etdirəcəyəm. Mən fəxr edirəm ki, xalq mənə inandı, məni dəstəklədi və mən də öz növbəmdə sözlərimə əməl etdim. Son 15 il ərzində Azərbaycanda hərtərəfli inkişaf təmin edilmişdir. Bunun əsas şərti ondan ibarətdir ki, biz Ulu Öndərin yolu ilə gedirik. Onun qoyduğu yol yeganə düzgün yoldur və Azərbaycanın müstəqillik tarixi bunun əyani sübutudur.

... Azərbaycan bu 15 il ərzində uğurla inkişaf edib. Azərbaycan xalqı birlik, həmrəylik nümayiş etdirib. Bizim gələcək fəaliyyətimiz üçün milli ideologiyamız əsas rol oynayır. Azərbaycançılıq məfkurəsi Azərbaycanda tam bərqərar olub, Azərbaycan xalqı vahid milli ideya ətrafında birləşib və ölkəmiz çox uğurla inkişaf edir. Azərbaycanda dinlərarası, millətlərarası münasibətlər nümunəvi xarakter daşıyır. Azərbaycanda bütün xalqların, dinlərin nümayəndələri bir ailə kimi mehribanlıq şəraitində yaşayır və bundan sonra da yaşayacaqdır. Bizim siyasətimiz və cəmiyyətin istəkləri bu istiqamətdə atılacaq addımları da şərtləndirəcək.

Azərbaycan ölkə daxilində dinlərarası, millətlərarası münasibətlərin tənzimlənməsində çox böyük uğurlara nail olub və biz son 15 il ərzində bunu dünyaya nümayiş etdirmişik. Təkcə ona görə yox ki, özümüzü göstərək, ona görə ki, dünyada da müsbət meyillər üstünlük təşkil etsin. Əfsuslar olsun ki, son 15 il ərzində dünyada bu istiqamətdə çox təhlükəli proseslər cərəyan edib. İslamofobiya, ksenofobiya, ayrı-seçkilik artıq bəzi ölkələrdə dövlət siyasətinə çevrilir, başqa millətlərin, dinlərin nümayəndələrinə mənfi münasibət göstərilir. Ona görə biz çalışmışıq və bundan sonra da çalışacağıq ki, öz nümunəmizi göstərərək sübut edək ki, multikulturalizm yaşayır və yaşamalıdır. Eyni zamanda, biz öz milli-mənəvi dəyərlərimizə sadiqik, buna bağlıyıq və təsadüfi deyil ki, 2016-cı və 2017-ci illər Azərbaycanda "Multikulturalizm" və "İslam Həmrəyliyi" illəri elan olunmuşdur.

**Azərbaycan Prezidenti İlham Əliyevin andiçmə mərasimindəki nitqindən 18 aprel, 2018-ci il**

## PREZİDENT İLHAM ƏLİYEV HACI CAVAD MƏSCİDİNİN YENİ BİNASININ AÇILIŞINDA İŞTİRAK EDİB



Səh. 2

## DÖVLƏT-DİN MÜNASİBƏTLƏRİ XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ DƏ MÜKƏMMƏL TƏNZİMLƏNİRDİ



Səh. 4

## YENİ QEYDİYYATDAN KEÇMİŞ DİNİ İCMALARA ŞƏHADƏTNAMƏLƏR TƏQDİM EDİLİB



Səh. 7

## "MİLLİ TƏHLÜKƏSİZLİYƏ ƏSAS TƏHDİDLƏRDƏN BİRİ - DİNİ RADİKALİZM" MÖVZUSUNDA SEMİNAR-MÜŞAVİRƏ BAŞ TUTUB



Səh. 11

# PREZİDENT İLHAM ƏLİYEV HACI CAVAD MƏSCİDİNİN YENİ BİNASININ AÇILIŞINDA İŞTİRAK EDİB



Aprelin 12-də Bakının Yasamal rayonunda Hacı Cavad məscidinin yeni binasının açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılış mərasimində iştirak ediblər.

Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov Prezident İlham Əliyevə görülən işlər barədə ətraflı məlumat verib.

Azərbaycan Prezidentinin tapşırığı ilə Yasamal rayonu, Abbas Mirzə Şərifzadə küçəsi 1 ünvanında Hacı Cavad məscidinin yeni binasının tikintisinə 2017-ci il iyulun 2-də başlanılmışdı. Prezident İlham Əliyev məscidin yeni binasının tikintisini daim diqqət mərkəzində saxlayıb, burada həyata keçirilən inşaat işlərinin gedişi ilə maraqlanıb, görülən işlərlə bağlı müvafiq tapşırıqlarını verib.

Hacı Cavad məscidinin yeni binası 1200 kvadratmetr ərazini əhatə edir. Yalnız ibadət zalının sahəsi 400 kvadratmetrə yaxındır. Milli memarlıq üslubunda və zövqlə inşa olunan ibadət evinin günbəzinin hündürlüyü 18, minarənin hündürlüyü isə 33,7 metrdir. Məscidin daxilində xüsusi bəzək elementlərindən istifadə olunub, günbəzin kənarlarına Quran ayələri yazılıb. Məscidin müqəddəs Qurani-Kərimdən surələr yazılmış divar və sütunları isə Azərbaycan nəqqaşlıq məktəbinin və Şərq ornamentlərinin nadir nümunələrindən istifadə olunaraq dini rəmzlərlə bəzədilib.



Eyni vaxtda 500-dən çox insanın ibadət edə biləcəyi məscidin birinci mərtəbəsi kişilər, ikinci mərtəbəsi isə qadınlar üçün nəzərdə tutulub. Döşəməyə xüsusi olaraq Hacı Cavad məscidi üçün toxunan yeni "Namazgah" xalı döşənib. Məscidin daxilində müasir texnologiyalarla işləyən havalandırma sistemləri quraşdırılıb.

Prezident İlham Əliyevin maddi-mədəniyyət abidələrimizin, müqəddəs ocaqlarımızın bərpası ilə bağlı imzaladığı fərman və sərəncamlar, verdiyi tapşırıqlar sırasında Hacı Cavad məscidinin yeni binasının inşası da əksini tapıb. Son illərdə bütün dini ocaqlarda həyata keçirilən bərpa və yenidənqurma işləri, yeni dini ocaqların inşası dövlətimizin başçısının xalqımızın milli-mənəvi dəyərlərinə, mədəni və tarixi zənginliyinə verdiyi qiymətin gözəl nümunəsidir.

Dövlətimizin başçısı Hacı Cavad məscidi dini icmasının üzvləri ilə görüşüb.

***Prezident İlham Əliyev görüşdə çıxış edərək deyib:***

- Hacı Cavad məscidinin yeni binasının açılışı münasibətilə sizi təbrik edirəm. Bu, çox gözəl hadisədir, çox gözəl məsciddir. Azərbaycanın ənənəvi memarlıq üslubunda tikilmiş məsciddir. Daxili tərtibatı, xarici görünüşü göz oxşayır.

Siz Hacı Cavad məscidi icmasının nümayəndələri yaxşı bilirsiniz ki, məscidin əvvəlki binası artıq yararsız vəziyyətdə idi. Məscidin ətrafında gedən quruculuq işləri, ictimai zonaların, yol qovşaqlarının yaradılması zamanı bu məsələ üzə çıxdı ki, məscid yararsız, demək olar ki, qəzalı vəziyyətdədir. Mən bunu biləndən sonra dərhal göstəriş verdim ki, tezliklə həmin Hacı Cavad məscidinin yaxınlığında məscid üçün yeni bina tikilsin və yeni binaya Hacı Cavad adı verilsin. Çünki bu məscid Hacı Cavad məscididir. Sadəcə olaraq onun yeni binasıdır.

Qısa müddət ərzində məscid tikildi və bu gün sizin sərəncamınıza verilir. Çox gözəl memarlıq abidəsidir. Minarə tikilib. Əvvəlki məsciddə minarə yox idi. İdarə üçün inzibati bina tikilib, ətraf abadlaşdırılıb. Mənə verilən məlumata görə, məsciddə eyni vaxtda 500, bəlkə də 600 insan ibadət edə bilər.

Məscid dövlət vəsaiti hesabına tikilib. Bildiyiniz kimi, son vaxtlar bizim bütün tarixi məscidlərimiz dövlət tərəfindən əsaslı şəkildə təmir edilib və yeni məscidlər tikilib. Onların arasında Bibiheybət məscidi, Təzəpir məscidi var. İndi Təzəpir məscidinin ətrafında böyük quruculuq işləri aparılır. Siz də bunu yaxşı bilirsiniz. Çünki Hacı Cavad məscidi elə o ərazidə yerləşirdi. Onun qabağı açılır, böyük park salınacaq, yol infrastrukturu yaradılacaq. Digər tarixi məscidlərimiz əsaslı şəkildə təmir olunmuşdur: Əjdərbəy məscidi, ondan sonra Şamaxı Cümə məscidi, hansı ki, Qafqazın ən qədim məscidlərindən biridir, 743-cü ildə tikilmişdir. Şamaxı rayonunda daha bir qədim məscid bu yaxınlarda əsaslı şəkildə təmir olunmuşdur, Dəmirçi kəndində. O da eyni vaxta təsadüf edir. İmamzadə Tarixi-Dini Kompleksinin tamamilə yenidən qurulması böyük tarixi layihə idi. Biz qədim ibadət yerini qoruma-qla yeni məscid tikdik. Orada da ictimai binalar tikilibdir, ətraf abadlaşdırılıbdır. Heydər məscidi mənim təşəbbüsümlə bir neçə il bundan əvvəl Bakıda tikilmişdir, gözəl, əzəmətli məsciddir. Cocuq Mərcanlı işğaldan azad olunandan sonra biz bu kənddə Şuşa məscidinin bənzəri olan məscid tikdik. Mən bu məscidin açılışında iştirak etmişəm. Demək olar ki, bizim son vaxtlar tikdiyimiz və əsaslı şəkildə bərpa etdiyimiz bütün məscidlərin açılışlarında mən şəxsən iştirak etmişəm.

Dövlət tərəfindən bu işlərin görülməsi dövlət-din münasibətlərinin yüksək səviyyədə olmasından xəbər verir. Bu münasibətlər Azərbaycanda nümunəvi xarakter daşıyır. Bildiyiniz kimi, dünən prezident seçkiləri keçirilmişdir və seçkilərdən sonra birinci tədbir, bax, bugünkü tədbirdir. Bu da dövlət-din münasibətlərinin bariz nümunəsidir, onun təzahürüdür. Mən çox şadam ki, son illər ərzində Azərbaycanda bizim dini-mədəni abidələrimiz qorunur, bərpa olunur. Bu, bizim tariximizdir.

Dini dəyərlər bizim milli-mənəvi dəyərlərimizin tərkib hissəsidir. Azərbaycan xalqı öz köklərinə, öz ənənələrinə sadiq olan xalqdır. Təsadüfi deyil ki, keçən il Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunmuşdur. İl ərzində nəinki ölkəmizdə, demək olar ki, bütün dünyada biz konfranslar, tədbirlər keçirmişik. Ötən ilin sonunda Bakıda böyük yekun konfrans keçirilmişdir və dünyanın diqqətini cəlb etdi. İslam Həmrəyliyi Oyunları Bakıda keçirilmişdir. Bütün müsəlman aləmini biz Bakıda qonaq etdik, onlara öz qonaqpərvərliyimizi göstərdik.

Yəni, İslam həmrəyliyi üçün Azərbaycan çox böyük işlər görür. Bu işlər bütün İslam aləmində yüksək qiymətləndirilir. Azərbaycan müsəlmanları bunu yüksək qiymətləndirirlər. Bizim siyasətimiz əməli işlərdə özünü göstərir. Bax, bu gözəl memarlıq abidəsi bu gün Hacı Cavad məscidinin

Davamı səh. 3

Əvvəli səh. 2

icmasına təhvil verilir. Mən sizi bu gözəl hadisə münasibətilə təbrik edirəm. Sizə uğurlar arzulayıram.

***Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlığını bildirən Yasamal rayon sakini Xanmirzə Bağırov deyib:***

- Cənab Prezident, icazə verin, Sizi yenidən Prezident seçilməyiniz münasibətilə təbrik edək və Azərbaycan Respublikasının bütün vətəndaşlarının, o cümlədən biz dindarların hüquqlarının müdafiəsi istiqamətindəki fəaliyyətinizdə Sizə uğurlar arzulayaq.

Cənab Prezident, hamımıza məlumdur ki, Hacı Cavad məscidinin yenidən daha da müasir və möhtəşəm memarlıq kompleksi kimi inşa edilməsi bilavasitə Sizin xüsusi Sərəncamınızla mümkün olub. Qısa bir zamanda bu gözəl məscidin dindarların istifadəsinə verilməsi Sizin və Mehriban xanımın diqqətinin nəticəsidir. Ona görə də biz, cənab Prezident, dindarlara yaradılan bu şəraitə görə icma adından, ağsaqqallar adından Sizə və Mehriban xanıma dərin minnətdarlığımızı bildiririk.



**Prezident İlham Əliyev:** Çox sağ olun.

**İcmanın nümayəndələri:** Çox sağ olun.

***Prezident İlham Əliyevə Quran hədiyyə edildi.***

***Milli-mənəvi və dini dəyərlərimizə göstərdiyi qayğıya görə dövlətimizin başçısına təşəkkür edən rayon sakini Əbdüləhəd Tağıyev deyib:***

- Arzu edirik, inşallah, o günlər olsun ki, Sizin rəhbərliyiniz altında bu dəfə seçildiyiniz müddətdə bizim hamımızın arzusu olan Qarabağ işğaldan azad edilsin, oradakı məscidlər bərpa olunsun və orada bu cür görüşlər keçirək. Bu, ən böyük arzumuzdur. Sağ olun. Sizi Prezident seçilməyiniz münasibətilə bir daha təbrik edirik.

**Prezident İlham Əliyev:** İnşallah. Çox sağ olun.

***

Xatırladaq ki, 2017-ci ilin aprel ayında Prezident İlham Əliyev Yasamal rayonunun "Sovetski" adlanan ərazisində Hacı Cavad məscidinin sökülməsini dayandırmış, məsələnin hərtərəfli və obyektiv araşdırılması üçün müvafiq komissiyanın yaradılması barədə göstəriş vermişdi. Komissiyanın qənaətinə uyğun olaraq, Prezident İlham Əliyev yerli icmanın da rəyi nəzərə alınmaqla yeni məscidin tikilməsi və yalnız bundan sonra Hacı Cavad məscidinin sökülməsi məsələsinə baxılması barədə qərar vermişdi. Bundan sonra dövlətimizin başçısının tapşırığına uyğun olaraq, Yasamal rayonu, Abbas Mirzə Şərifzadə küçəsində daha geniş, gözəl və müasir məscidin tikilməsi üçün yer və vəsait ayrılmış və tikinti işlərinə başlanılmışdı.

Məscidin ərazisində, həmçinin imam, dərs, kitabxana, qadın və kişilər üçün dəstəmaz otaqları və köməkçi tikililər inşa olunub. Məscid üçün içməli su anbarı, ayrıca qazanxana da tikilib. Burada, həmçinin ayrıca parkinq sahəsi yaradılıb.

Hacı Cavad məscidinin tarixini əks etdirən daş kitabələr yaxın vaxtlarda yeni ünvana gətiriləcək. Beləliklə, dini etiqad azadlığına və milli-mənəvi dəyərlərimizə Prezident İlham Əliyevin göstərdiyi böyük qayğının təzahürü olan bu məscid milli memarlığımızın zəngin ənənələrini özündə ehtiva etməklə Azərbaycan dindarlarına gözəl töhfədir.

Sonda xatirə şəkli çəkdirilib.

# Hacı Salman Musayevə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" təqdim edilib

Aprelin 10-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini, müfti Hacı Salman Musayevə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu"nun təqdim edilməsi mərasimi keçirilib. Qeyd edək ki, Prezident İlham Əliyevin aprelin 6-da imzaladığı Sərəncamla Hacı Salman Musayev Azərbaycan Respublikasında dini-mənəvi dəyərlərin qorunub saxlanmasında xidmətlərinə görə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilib.

Tədbirdə DQİDK-nın rəhbərliyi ilə yanaşı, Rus Pravoslav Kilsəsinin Bakı-Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein, Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Azərbaycan Respublikasının Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili, Avropa Yəhudilərinin Bakı dini icmasının sədri Aleksandr Şarovski, Roma Katolik kilsəsinin Azərbaycandakı apostol prefekturasının nümayəndəsi Vladimir Baksa iştirak ediblər.



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Salman Musayevi 60 illik yubileyi münasibətilə DQİDK-nın kollektivi adından təbrik edib. Komitə sədri vurğulayıb ki, müfti Salman Musayev Şeyxülislam Allahşükür Paşazadənin rəhbərliyi altında uzun illər xalqımızın dini-mənəvi dəyərlərinin, o cümlədən ölkəmizdə tarix boyu mövcud olmuş tolerantlıq ənənələrinin qorunub saxlanmasında böyük xidmətlər göstərmiş nüfuzlu din xadimidir. Xüsusilə, Azərbaycanda dinlərarası və məzhəblərarası dialoqun, eləcə də vəhdət və qardaşlıq mühitinin inkişaf etdirilməsində müfti kimi xidmətləri danılmazdır. O bildirib ki, möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən Hacı Salman Musayevin indiyədək ali dövlət mükafatı olan "Şöhrət" ordeni, eyni zamanda "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi həm onun fəaliyyətinə verilən qiymətdir, həm də dövlət başçımızın ölkəmizdə dini sahəyə göstərdiyi yüksək diqqətin bariz göstəricisidir.

Sonra "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" Salman Musayevə təqdim olunub.

Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini, müfti Hacı Salman Musayev onun fəaliyyətinə verilən bu yüksək qiyməti böyük fərəh hissi ilə qarşıladığını və buna görə dövlət başçısına minnətdar olduğunu bildirib. Hacı Salman Musayev vurğulayıb ki, bu gün ölkəmizdə milli-mənəvi dəyərlərin qorunması və təbliği, dini radikalizmə qarşı mübarizə istiqamətlərində aparılan işlər, əldə edilən uğurlar Dövlət Komitəsi ilə Qafqaz Müsəlmanları İdarəsinin birgə əməkdaşlığı və fəaliyyəti nəticəsində mümkün olub.

Daha sonra çıxış edən dini konfessiyaların rəhbərləri Azərbaycanda mövcud olan multikultural və tolerantlıq ənənələrindən danışıblar. Prezident İlham Əliyev tərəfindən Salman Musayevin belə mötəbər mükafatla təltif edilməsini dövlətimizin dini sahəyə göstərdiyi yüksək diqqət və qayğısının təzahürü kimi dəyərləndiriblər.

# CƏNAB İLHAM ƏLİYEVİN SEÇKİLƏRDƏ QƏLƏBƏSİ BÜTÖVLÜKDƏ AZƏRBAYCAN XALQININ ZƏFƏRİDİR



*YAP İcra katibinin müavini, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının yap.org.az saytına müsahibəsi*

**- Mübariz müəllim, Aprelin 11-də Azərbaycan Respublikasında növbəti prezident seçkiləri keçirildi. Seçkilərin qalibi Yeni Azərbaycan Partiyasının sədri, dövlət başçısı İlham Əliyevdir. Sizcə, cənab İlham Əliyevin növbəti dəfə parlaq qələbə qazanmasının əsasında hansı amillər dayanır?**

- Prezident seçkiləri, səsvermə prosesi azad və şəffaf, Azərbaycan seçicilərinin yüksək fəallığı ilə baş tutdu. Azərbaycan vətəndaşları heç bir maneə olmadan, azad və sərbəst şəkildə seçki məntəqələrinə gedərək öz iradələrini ifadə ediblər. Bu seçkilərdə xalqımız Yeni Azərbaycan Partiyasının Sədri, dövlət başçısı cənab İlham Əliyev seçicilərin mütləq əksəriyyətinin səsini qazandı.

Qeyd edim ki, Azərbaycanda keçirilən seçkilər daim yerli və beynəlxalq ictimaiyyət tərəfindən böyük maraqla izlənilir. Yerli və beynəlxalq müşahidəçilərin, yerli və xarici kütləvi informasiya vasitələrinin, o cümlədən digər aşkarlıq institutlarının azad və sərbəst şəkildə fəaliyyət göstərmələri üçün bütün şərait yaradılıb. Aprelin 11-də keçirilən prezident seçkilərini də 1000-ə yaxın beynəlxalq, 60 minə yaxın isə yerli müşahidəçi izləyib.

Seçkilərin nəticələri isə Azərbaycan xalqının bir daha Heydər Əliyev siyasətinə sadiqliyini nümayiş etdirdi. Yeni Azərbaycan Partiyasının sədri cənab İlham Əliyevin seçkilərdə parlaq qələbə qazanması Azərbaycan vətəndaşlarının seçiminin sabitlik, təhlükəsizlik və davamlı inkişaf olmasının əyani ifadəsidir. Azərbaycan xalqı doğru seçimini etməklə özünün siyasi iradəsini bütün dünyaya bir daha çatdırmış oldu.

Bu qələbə bütövlükdə Azərbaycan xalqının zəferidir. Bu qələbə lider-xalq birliyinin sarsılmaz olduğunu bir daha sübut etdi. 11 aprel seçkiləri həm də, Azərbaycanda demokratiyanın növbəti təntənəsi oldu.

**- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də keçirilən seçkilərdə Ona göstərilən böyük etimada görə xalqımıza müraciət edərək minnətdarlığını bildirib...**

- Bu seçkilərdə Azərbaycan xalqı "İlhamla irəli!" proqramının davamlı olmasına səs verdi. Aprelin 11-də Prezident İlham Əliyev xalqa müraciətində Azərbaycanın son 15 ildə keçdiyi yolu geniş təhlil edərək bu yolda əldə olunmuş uğurları vurğuladı və hər bir sahədə ölkəmizin nailiyyətlər qazandığını, inkişaf etdiyini qeyd etdi. Bir məqam xüsusi qeyd olunmalıdır ki, xalq cənab Prezidentin verdiyi vədlərin tam şəkildə yerinə yetirildiyinin şahididir.

Dövlətimizin başçısı Azərbaycan xalqına müraciətində qeyd edib: "Bu seçkilərdə Azərbaycan xalqı sabitliyə, təhlükəsizliyə, inkişafa, tərəqqiyə səs vermiş, son 15 il ərzində görülən işlərə yüksək qiymət vermişdir. Bütün bu uğurları biz sizinlə birlikdə qazandıq. Xalq-iqtidar birliyi, bizim məqsədyönlü siyasətimiz bu gün Azərbaycanı qüdrətli dövlətə çevirmişdir. Azərbaycanın beynəlxalq nüfuzu artır, biz dünya miqyasında layiqli yer tuta bilmişik. Bu gün Azərbaycan dünyada çox böyük hörmətə, rəğbətə, dəstəyə malik olan bir ölkədir. Biz etibarlı tərəfdaşıq, bizimlə hesablaşırlar və biz beynəlxalq aləmdə öz mövqelərimizi böyük dərəcədə gücləndirə bilmişik".

Ümumiyyətlə, hər bir seçki xalqın bu və ya digər siyasətə, proqrama münasibəti deməkdir. Cənab İlham Əliyevin seçki proqramı Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi inkişaf konsepsiyası əsasında yeni dövrdə yeni keyfiyyətlə daha təkmiləşdirilərək tətbiq olunmaqdadır. Prezident İlham Əliyev beynəlxalq miqyasda dünya liderləri içərisində böyük nüfuza sahib olan şəxsdir. Azərbaycan ərazisinin və əhalisinin sayı baxımından kiçik dövlətdir. Amma bu dövlətin başçısı siyasi çəkisinə və nüfuzuna görə beynəlxalq miqyasda kifayət qədər güclü liderlər sırasındadır. Azərbaycan Cənubi Qafqaz regionunda lider dövlətdir və burada söz sahibi bizik. Yəni, regionla bağlı baş verən hadisələrdə, qlobal layihələrlə bağlı məsələlərdə əsas söz sahibi Prezidentimiz İlham Əliyevdir.

Ümumilikdə, ötən 15 ildə ölkəmiz tarixi və şərəfli yol keçib. Azərbaycan bütün sahələrdə ciddi nailiyyətlərə imza atıb. Bu nailiyyətləri xatırlatmağa, saymağa elə də ehtiyac yoxdur. Çünki bütün nailiyyətlər xalqımızın gözü qarşısında, onun şahidliyi ilə baş verib. Vətəndaşlarımız qazanılan uğurları öz həyatında hiss edir.

Azərbaycan xalqı Yeni Azərbaycan Partiyasının sədri, dövlət başçısı cənab İlham Əliyevə yüksək inam və etimad göstərməklə ölkəmizin qarşıdakı dövrdə də möhtəşəm nailiyyətlər, uğurlar qazanmasına vəsiqə vermiş oldu. Şübhəsiz ki, qarşıdakı 7 il ərzində də Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikası daha da irəliləyəcək, inkişaf edəcək, daha da qüdrətlənərək beynəlxalq müstəvidə öz mövqeyini gücləndirəcəkdir.

**- Azərbaycanın qarşıdakı illərdə əsas hədəfləri nədən ibarətdir?**

- Əlbəttə ki, biz qazanılan uğurlarla yanaşı, Azərbaycanın gələcəyinə baxırıq. Qarşıdakı illərdə nəzərdə tutulan məsələlər, hədəflər cənab İlham Əliyevin seçki proqramında çox dəqiqliklə ifadə olunub.

Azərbaycanda vətəndaş həmrəyliyinə, iqtisadi-maliyyə təhlükəsizliyinə tam nail olmuşuq. Bu baxımdan ölkəmizdə heç bir narahatlıq yoxdur. Azərbaycanda güclü dövlət idarəçiliyi mövcuddur. Dövlətin rəhbərinə xalqın inamı var. Bütün bunlar isə ölkənin daxilində modernləşmə siyasətinin daha dərinləşməsinə əlverişli mühit yaradıb. Dövlət başçısının vurğuladığı kimi, müxtəlif sferalardakı islahatlar bundan sonra da davam edəcək.

Bir neçə ildir ki, dünya bazarında neftin qiymətinin aşağı düşməsi ölkəmizin gəlirlərinə təsir göstərsə də, cənab Prezidentin siyasəti nəticəsində sosial-iqtisadi inkişaf proqramları, qeyri-neft sektorunun inkişafı yönündə görülən işlər yüksək nəticələr verməkdədir. Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında bu məsələləri vurğuladı.

Azərbaycan sabitlik baxımından nümunəvi ölkədir. Prezident İlham Əliyev dəfələrlə deyib ki, Azərbaycan sabitlik adası kimi dünyada qəbul olunur. Bu sabitliyi qorumaq üçün tədbirləri davam etməliyik. Burada iqtisadiyyatın davamlı inkişafı, sosial layihələrin ardıcıl olaraq həyata keçirilməsi, müxtəlif radikal elementlərə qarşı mübarizə vacib yer tutur. Radikal elementlərin qarşısının alınması üçün cəmiyyətin daha geniş maarifləndirilməsinə, gənclərin sosial şəbəkələrdə fəallığının artmasına, qabaqlayıcı tədbirlərin görülməsinə ehtiyac var.

Azərbaycanda qazanılmış nailiyyətləri daha yüksək səviyyəyə qaldırmaq və inkişaf etdirmək, xalqın rifahını daha da yaxşılaşdırmaq, Azərbaycan Ordusunun gücünü daha artırmaq, eləcə də ölkəmizin beynəlxalq miqyasda rolunu artırmaq qarşıda duran əsas hədəflər sırasındadır. Bilirsiniz ki, bu məqsədlə hər bir sahənin perspektiv inkişafı üçün strateji yol xəritələri dövlət başçısı tərəfindən təsdiqlənib və icra olunmaqdadır.

Bu gün Azərbaycan xalqı vahid bir ideologiya ətrafında daha sıx birləşməlidir. Ümummilli ideologiyamız azərbaycançılıqdır və bu ideologiya çərçivəsində ölkəmizi daha sürətlə inkişaf etdirməliyik. Əminəm ki, gələcəkdə də bu yolda inamla irəliləyəcəyik.

**- Prezident İlham Əliyev Azərbaycan xalqına müraciətində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə də toxunub. Bu barədə nə deyə bilərsiniz?**

- Bu, təbiidir. Çünki Azərbaycan dövlətinin qarşısında dayanan ən başlıca vəzifə torpaqlarımızın işğaldan azad olunması, ərazi bütövlüyümüzün təmin edilməsidir. Bu vəzifənin yerinə yetirilməsi üçün Prezident İlham Əliyev tərəfindən böyük işlər həyata keçirilib, diplomatik müstəvidə nailiyyətlər qazanılıb. Ermənistan işğal etdiyi torpaqlarımızı hansısa bir formada özününküləşdirə bilməyib. Yaratdığı oyuncaq rejim isə de-yure tanınmır. Azərbaycanın ərazisinin işğal olunmuş hissəsi nə Ermənistanın ərazisi kimi, nə də qondarma rejimin ərazisi kimi tanınmayıb. Diplomatik baxımdan bu, çox əhəmiyyətli məsələdir. Çünki bu ərazilər dünya birliyi tərəfindən işğal olunmuş ərazilər kimi qəbul olunub. Bütün qəbul olunan sənədlərdə həmin ərazilərin erməni silahlı qüvvələri tərəfindən boşaldılmalı olduğu birmənalı şəkildə qeyd olunur. BMT Təhlükəsizlik Şurasının və Baş Assambleyasının, Avropa Şurasının, ATƏT-in, İslam Əməkdaşlıq Təşkilatının qəbul etdiyi qətnamələrdə həmin ərazilərin Azərbaycana məxsus olduğu təsbit olunub.

Eyni zamanda, Azərbaycanın ayrı-ayrı ölkələrlə imzaladığı ikitərəfli sənədlərdə də ölkəmizin ərazi bütövlüyü tanınır. Bütün bunlar Azərbaycanın böyük diplomatik uğurudur və gələcək nailiyyətlər baxımından çox əhəmiyyətlidir. Bu torpaqları Azərbaycandan qoparmaq üçün heç bir beynəlxalq sənəd ortada yoxdur və olmayacaq da.

Bilirsiniz ki, Ermənistan xarici havadarlarının dəstəyi ilə 1993-cü ilə qədər torpaqlarımızın 20 faizini işğal edib. 1993-cü ildə Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan xalqına müraciət edərək torpaqlarımızı işğalçılardan azad etməyə səslədi. 1993-cü ilin sonu-1994-cü ilin əvvəlində ordumuz torpaqlarımızın bir hissəsini işğaldan azad etdi. Ermənistan 1994-cü ilin may ayında atəşkəs haqqında saziş imzalamaq üçün masaya oturmağa məcbur oldu. Atəşkəs rejiminin mövcud olmasına baxmayaraq, ermənilər tərəfindən atəşkəs mütəmadi olaraq pozulur, amma bu, böyük hərbi əməliyyatlar səviyyəsində olmayıb. Amma 2016-cı ilin aprel ayında erməni tərəfinin təxribatları nəticəsində Azərbaycan Ordusu işğalçılara tutarlı cavablar verdi və bu, tariximizə şanlı aprel döyüşləri kimi yazıldı. Aprel döyüşlərində də ordumuzun gücü sayəsində torpaqlarımızın bir hissəsi işğaldan azad olundu, işğalçıya sarsıdıcı zərbələr endirildi. Bu həm hərbi, həm mənəvi, həm də siyasi qələbə idi. Amma beynəlxalq birliyin çağırışları nəticəsində hərbi əməliyyatlar dayandırıldı.

Bütün hallarda aprel döyüşləri növbəti dəfə düşmənə dərs oldu. Əgər Ermənistan tərəfi müxtəlif bəhanələrlə münaqişənin sülh yolu həllini uzatmağa davam edərsə, hərbi əməliyyatlar qaçılmaz olacaq. Beynəlxalq hüquq əsas verir ki, Azərbaycan öz torpaqlarını işğalçılardan azad etsin. Buna görə də, Prezidentimizin siyasətində Azərbaycanın ərazi bütövlüyünün təmin olunması əsas məsələdir.

Bu məsələ ilə əlaqədar Prezident İlham Əliyev Azərbaycan xalqına müraciətində bəyan edib: «Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı prinsipial mövqeyimizdən bir addım da geriyə atmamışıq. Bizim prinsipial

Davamı səh. 5

Əvvəli səh. 4

mövqeyimiz daha da güclənir. Bu münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır, bunun başqa yolu yoxdur. Son illər ərzində bir çox mötəbər beynəlxalq təşkilatlar bizim mövqeyimizi, ədaləti dəstəkləyən bir sıra qərar və qətnamələr qəbul etmişlər. Biz böyük diplomatik qələbələrə nail olmuşuq. Eyni zamanda, döyüş meydanında biz böyük qələbəyə nail olmuşuq. Azərbaycan əsgəri, Azərbaycan Ordusu, Azərbaycan dövləti işğal altında olan torpaqlarımızın bir hissəsini işğalçılardan azad etmişdir. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi işğalçılardan təmizləndi və o torpaqlarda bu gün Azərbaycan bayrağı dalğalanır. İşğaldan azad edilmiş torpaqlara həyat qayıdır, insanlar qayıdır. O torpaqlarda prezident seçkiləri keçirilir. Gün gələcək və bu gün hələ də işğal altında olan bütün torpaqlarda Azərbaycan bayrağı qaldırılacaq, bu torpaqlarda prezident seçkiləri keçiriləcək, Azərbaycan Prezidenti seçiləcəkdir».

**- Mübariz müəllim, prezident seçkilərini izləyən beyənlxalq müşahidə missiyalarının mütləq əksəriyyəti bu seçkiləri yüksək qiymətləndirdilər, azad və şəffaf keçirildiyini bəyan etdilər. Amma ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun müşahidə missiyası isə «ənənəsinə» sadiq qalaraq fərqli yanaşma nümayiş etdirdi. Buna münasibətiniz necədir?**

- ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu geopolitik siyasətdə alət rolunu oynayır. Bu təşkilat məqsədyönlü şəkildə məlum beynəlxalq dairələrə xidmət göstərir və müəyyən milli dövlətlərə qarşı həqiqətdən uzaq bəyanatlar yayır. Azərbaycanda keçirilən prezident seçkilərinin nəticələri ilə bağlı ATƏT DTİHB-nin müşahidə missiyasının verdiyi bəyanat xroniki xəstəliklər kimidir. Belə xroniki xəstəliklə rastlaşmağımız birinci dəfə deyil. Çünki əvvəlki seçkilərdə də biz təşkilatın bu tipli bəyanatlarının şahidi olmuşuq.

Təbii ki, ATƏT DTİHB-nin müşahidə missiyasının bu mövqeyi sifarişlidir, ikili standartların göstəricisidir və müəyyən məqsədlər daşıyır. Lakin bu cür bəyanatlar seçkilərdə xalqın Prezident seçdiyi cənab İlham Əliyevin siyasətinə təsir göstərə bilməz. Belə bəyanatlar həmin təşkilatların özləri üçündür, cəmiyyətimiz üçün heç bir önəm kəsb etmir. Əsas xalqın iradəsidir ki, Azərbaycan xalqı prezident seçkilərində cənab İlham Əliyevə yüksək etimad göstərdi.

# İsmayıllıda "Azərbaycanın dövlət-din modeli: əsas istiqamətlər" mövzusunda regional konfrans keçirilib



Aprelin 24-də İsmayıllıda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və rayon icra hakimiyyətinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 95 illiyinə həsr olunan "Azərbaycanın dövlət-din modeli: əsas istiqamətlər" mövzusunda regional konfrans keçirilib.

Rayon mədəniyyət mərkəzində təşkil olunan regional konfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və İsmayıllı Rayon İcra Hakimiyyətinin rəhbər şəxsləri, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) nümayəndəsi, yerli hüquq-mühafizə orqanlarının rəhbərləri, fəal gənclər, dini icma sədrləri, din xadimləri, ilahiyyatçılar, habelə ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə şəhərin mərkəzində Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə tər çiçəklər düzüblər. Sonra mədəniyyət mərkəzinin foyesində Ulu Öndərin zəngin həyatını, ictimai-siyasi fəaliyyətini əks etdirən sərgi ilə tanışlıq olub.

Konfransı açan rayon icra hakimiyyətinin başçısı Mirdaməd Sadıqov Ümummilli Lider Heydər Əliyevin 95 illiyinə həsr edilən tədbirin əhəmiyyətini yüksək qiymətləndirib, Ulu Öndər tərəfindən işlənib hazırlanan dövlət-din modelinin bütün dünya üçün bir nümunə olduğunu söyləyib. Rayondakı dini durum və dini icmaların qarşılıqlı fəaliyyəti barədə ətraflı məlumat verən M.Sadıqov bildirib ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət-din siyasəti hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Sonra çıxış edən DQİDK-nın sədri Mübariz Qurbanlı Ulu öndər Heydər Əliyevin dövlət quruculuğu sahəsində həyata keçirdiyi uğurlu islahat proqramlarından danışıb. O, Ümummilli Liderin ölkəmizə dövlət-din münasibətlərinin əsasını qoymaqla, bu sahədə sağlam ideologiya yaratdığını bildirib. Qeyd edib ki, dahi şəxsiyyətin rəhbərliyi ilə Azərbaycanda dövlət-din münasibətləri tənzimlənib, qanunvericilik bazası formalaşdırılıb.

Bu uzaqgörən siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdıran Mübariz Qurbanlı bu ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunmasının önəminə toxunub, müstəqil Azərbaycanın 1918-ci ildə yaradılan Xalq Cümhuriyyətinin siyasi varisi olduğunu bildirib. Dövlət Komitəsinin sədri qeyd edib ki, Prezident İlham Əliyev tərəfindən atılan bu mühüm addım, həm də Xalq Cümhuriyyəti dövründə dövlət-din münasibətlərinin tarixinə nəzər salmağımıza səbəb olur. Bugünkü dövlət-din modelimiz tariximizə, ənənələrimizə əsaslanır. Bu model bu gün ölkəmizdə sabitliyin, tolerantlığın, nəticə etibarı ilə dinamik inkişafımızın başlıca səbəblərindəndir. Komitə sədri Prezident İlham Əliyevin dinə qayğısının təzahürü olaraq 2016-cı ili ölkəmizdə "Multikulturalizm İli", 2017-ci ili "İslam Həmrəyliyi İli" elan etdiyini, ötən ilin oktyabr ayında Mənəvi Dəyərlərin Təbliği Fondunun, bu ilin fevral ayında isə Azərbaycan İlahiyyat İnstitutunun təsis edilməsi haqqında Fərman və Sərəncam imzaladığını diqqətə çatdırıb.

Konfransdakı çıxışında Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin böyük məsləhətçisi Ceyhun Məmmədov qeyd edib ki, ölkəmizdə bütün dinlərin nümayəndələri həmrəylik və birlik şəraitində fəaliyyət göstərirlər. Bu da Ümummilli Lider Heydər Əliyevin dinin cəmiyyət həyatında rolunu yüksək qiymətləndirməsi nəticəsində mümkün olub. C.Məmmədov bu sahəyə diqqətin davamı olaraq ölkəmizdə dini ibadətgahların bərpa olunaraq dindarların istifadəsinə verildiyini, dini qurumlara maddi yardımların ayrıldığını deyib. Din xadimlərinə müraciət edən C.Məmmədov bu sahədə görülən işlərə öz töhfələrini vermələri üçün onları sağlam dini maarifləndirmə prosesinin həyata keçirilməsində aktiv olmağa çağırıb.

QMİ-nin aparat rəhbəri Simran Həsənov bildirib ki, Ümummilli Liderin ölkəmizə rəhbərliyi dövründə dini etiqad azadlığının əsası qoyulub. Qəbul edilən qanunlar və normativ hüquqi aktlar dini etiqad azadlığını təmin edir, eyni zamanda dövlətlə dini qurumlar arasındakı münasibətləri qanun çərçivəsində tənzimləmək üçün hüquqi əsas yaradır.

Tədbirdə dövlət-din münasibətlərinin tənzimlənməsində Ümummilli Lider Heydər Əliyevin mühüm xidmətlərindən, dinə dövlət qayğısından, dövlət-din münasibətlərinin inkişaf dinamikasından, bu sahədəki siyasətin əsas istiqamətlərindən ətraflı danışılıb.

**Ümummilli Lider Heydər Əliyevin 95 illiyinə həsr olunmuş regional konfrans aprelin 25-də öz işini davam etdirib.**

"Dini radikalizmlə mübarizədə maarifləndirmə işinin təşkili" mövzusunda panel formatında keçirilən konfransda rayonun ümumtəhsil məktəblərinin direktorları, təlim-tərbiyə işləri üzrə direktor müavinləri, məktəb psixoloqları, "Həyat bilgisi" fənnini tədris edən müəllimlər iştirak ediblər.

Konfransı giriş sözü ilə açan İsmayıllı Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Rövşən Ağayev mövzunun əhəmiyyətini yüksək qiymətləndirib. R. Ağayev bu cür tədbirlərin dini radikalizmlə mübarizədə effektiv vasitə olduğunu qeyd edib.

Daha sonra çıxış edən DQİDK-nın sədr müavini Gündüz İsmayılov Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdəki tolerantlıq mühitinin dünyaya nümunə olduğunu, respublikamızda istər dini, istərsə də milli və irqi ayrı-seçkiliyin olmadığını vurğulayıb. Din sahəsində qarşıda duran məqsədlərə, xüsusilə dini-ideoloji, milli və ictimai təhlükəsizlik baxımından hədəflərə toxunan G. İsmayılovun sözlərinə görə, dini radikalizmlə ideoloji mübarizə sahəsində müəllimlərin və ziyalıların üzərinə böyük məsuliyyət düşür.

İslamdakı birlik və həmrəylik anlayışının dünyada analoqu olmadığını da diqqətə çatdıran sədr müavini deyib ki, müsəlmanların qardaşlıq anlayışı milli, irqi və sosial fərqliliyin fövqündə dayanır. İslam dünyasındakı məzhəblərarası qardşıdurmalardan danışan G. İsmayılov



bildirib ki, məzhəb qovğasının kökündə cahillik dayanır. Yalnız müsəlmanların istər dini, istər dünyəvi elmi artıqca məzhəbçilik və cahillik aradan qalxa bilər və buna gedən yol isə maarifləndirmədən keçir.

DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov və Topçu kənd məscidi dini icmasının sədri Rəşid Məmmədov çıxışlarında dini radikalizmlə mübarizədə maarifçilik işinin təşkilinə xüsusi önəm verilməsinin vacibliyinə toxunublar.

Daha sonra çıxış edən digər natiqlər dinə və dindarlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə təşəkkürlərini bildiriblər.

# BAKIDA "MƏNƏVİ DƏYƏRLƏRİN TƏBLİĞİ: REALLIQLAR, PERSPEKTİVLƏR" MÖVZUSUNDA KONFRANS



Aprelin 19-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə Bakıda "Mənəvi dəyərlərin təbliği: reallıqlar, perspektivlər" mövzusunda konfrans keçirilib.

Konfransda DQİDK-nın rəhbərliyi, Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru və Himayəçilər Şurasının üzvləri, ölkəmizdə fəaliyyət göstərən dini konfessiya rəhbərləri, din xadimləri, gənclər, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədri Mübariz Qurbanlı çıxış edərək bildirib ki, konfransın keçirilməsində məqsəd Mənəvi Dəyərlərin Təbliği Fondunun fəaliyyəti haqqında ictimaiyyətə məlumat vermək, eyni zamanda mənəvi dəyərlərimizin təbliği ilə bağlı müzakirələr aparmaqdır. Xalqımız özünəməxsus milli-mənəvi dəyərlərə sahibdir, bu dəyərlərin qorunub saxlanılması vacib məsələlərdir biridir. Milli-mənəvi dəyərlərin özündə böyük milli əxlaqi və bəşəri duyğuları təcəssüm etdirdiyini diqqətə çatdıran Mübariz Qurbanlı bura azərbaycançılıq ideologiyası, dilimiz, dinimiz, vətənimiz, müstəqilliyimiz və bu kimi amillərin aid olduğunu deyib.

Azərbaycanın müstəqilliyini bərpa etdikdən sonra xalqımızın milli-mənəvi dəyərlərə qayıdışının sürətləndiyini deyən Mübariz Qurbanlı ölkəmizdə dinlər və etnik qruplar arasındakı münasibətlərin Ümummilli Lider Heydər Əliyevin dövlətçilik konsepsiyasına uyğun olaraq daha da möhkəmləndiyini, bu sahənin dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildiyini qeyd edib. O, ən böyük dəyərlərimizdən biri olan azərbaycançılıq ideologiyasının Ulu Öndər Heydər Əliyev tərəfindən dövlətçilik siyasətinə daxil edildiyini deyib. Vurğulayıb ki, Ulu Öndərin layiqli davamçısı olan Prezident İlham Əliyev milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində mühüm addımlar atır. Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması da bu sahəyə verilən dəyərin göstəricisidir. Fondun qarşısında böyük vəzifələrin qoyulduğunu deyən Mübariz Qurbanlı bu istiqamətdə Qafqaz Müsəlmanları İdarəsi, kütləvi informasiya vasitələri, vətəndaş cəmiyyətləri, habelə müvafiq dövlət qurumları ilə əməkdaşlığın önəminə diqqət çəkib.

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov Fondun fəaliyyət istiqamətləri və hədəfləri barədə məlumatları əks etdirən geniş təqdimatla çıxış edib. O, Fondun mənəvi dəyərlərin qorunması və inkişafı, bu sahədə sosial layihələrin reallaşdırılması, habelə vətəndaşların dini etiqad azadlığının həyata keçirilməsinə dövlət dəstəyinin verilməsi istiqamətində fəaliyyət göstərəcəyini bildirib. İcraçı direktor cəmiyyətdə mənəvi dəyərlərə bağlılığın gücləndirilməsinin və gələcək nəsillərə çatdırılmasının, milli birlik və həmrəyliyimizin möhkəmləndirilməsinin, mənəvi dəyərlərimizin təbliği vasitəsilə Azərbaycan mədəniyyətinin inkişafına töhfələr verilməsinin, eləcə də cəmiyyətdə tarixən xalqımıza xas olan xeyriyyəçilik ənənələrinin dirçəldilməsinin Fondun əsas hədəfləri sırasında yer aldığını diqqətə çatdırıb.

Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin böyük məsləhətçisi Ceyhun Məmmədov bildirib ki, Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması dini sahəyə göstərilən diqqətin bariz nümunəsidir. Bu gün bir çox müsəlman ölkələrində olan problemlərin kökündə xarici təsirlər dayanır. Hər hansı bir milləti, dövləti məhv etmək üçün milli, dini dəyərlər istifadə olunub və bu istiqamətdə ölkədə problemlərin yaradılmasına cəhdlər edilib. Zaman-zaman Azərbaycanda da kənardan müəyyən təsirlər hiss olunub, dini vəziyyətin gərginləşdirilməsi ilə bağlı müəyyən qüvvələrin fəaliyyət göstərdiyi müşahidə edilib, ancaq Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində buna nail ola bilməyiblər.

2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan olunması, Mənəvi Dəyərlərin Təbliği Fondu və İlahiyyat İnstitutunun yaradılması, Cocuq Mərcanlıda Şuşa məscidinin oxşarının inşa olunması, bu günlərdə Hacı Cavad məscidinin yeni binasının istifadəyə verilməsi dövlətimizin başçısının milli-mənəvi dəyərlərimizə göstərdiyi xüsusi diqqətin təzahürüdür.

Qafqaz Müsəlmanları İdarəsinin Aparat rəhbəri Simran Həsənov bildirib ki, Prezident İlham Əliyevin ölkədə sabitliyin qorunub saxlanılması istiqamətində apardığı siyasətin nəticəsidir ki, xalq növbəti dəfə ona etimad göstərdi. Dövlətimizin başçısı milli-mənəvi dəyərlərimizin qorunmasına xüsusi diqqət və qayğı göstərir. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini, Mənəvi Dəyərlərin Təbliği Fondunun Himayəçilər Şurasının üzvü Aynur Sofiyeva qeyd edib ki, Mənəvi Dəyərlərin Təbliği Fondunun qarşısında mühüm məqsədlər və hədəflər dayanır. O bu istiqamətdə fəaliyyətin uğurlu olması üçün Himayəçilər Şurasının da üzərinə böyük məsuliyyətin düşdüyünü vurğulayıb.

Daha sonra çıxış edən Rus-Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının nümayəndəsi Konstantin Pominov, Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev, AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru, Mənəvi Dəyərlərin Təbliği Fondunun Himayəçilər Şurasının üzvü Teymur Kərimli, "Səs" Media Qrupunun rəhbəri, Mənəvi Dəyərlərin Təbliği Fondunun Himayəçilər Şurasının üzvü Bəhruz Quliyev, Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili, Konstitusiya Araşdırmalar Fondunun rəhbəri, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yanında İctimai Şuranın sədri Əliməmməd Nuriyev və Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun nümayəndəsi Xatirə Hüseynova milli mənəvi irsimizin gələcək nəsillərə çatdırılmasının, bu dəyərlərə bağlılığın qorunub saxlanılmasının, tolerantlıq mühitinin təbliğinin önəmindən danışıblar.

# DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ İNDONEZİYALI JURNALİSTİ QƏBUL EDİB



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı aprelin 10-da İndoneziyanın "Trans 7" telekanalının prodüseri Nadria Fitrianı qəbul edib.

Görüş zamanı Dövlət Komitəsinin sədri Azərbaycanda olan dini tolerantlıq mühiti, milli-mənəvi dəyərlərə qayğı və dövlətin bu istiqamətdə yürütdüyü siyasət barədə sualları cavablandırıb. Azərbaycanın multikultural mühiti barədə jurnalisti məlumatlandıran Mübariz Qurbanlı ölkəmizdə bütün dini konfessiyalar, icmalar və müxtəlif xalqların nümayəndələri üçün hər cür şəraitin yaradıldığını, onların bərabər hüquqlarının təmin olunduğunu diqqətə çatdırıb. 2017-ci ilin ölkəmizdə Prezident İlham Əliyev tərəfindən "İslam Həmrəyliyi İli" elan edildiyini vurğulayan Dövlət Komitəsinin sədri Azərbaycanın müsəlman ölkələri arasında İslam həmrəyliyinin gücləndirilməsi istiqamətində verdiyi töhfələr barədə də danışıb.

Ölkəsində yayımlanan "Jazirah İslam" verilişinin çəkilişi üçün ölkəmizdə səfərdə olduğunu bildirən jurnalist burada qarşılaşdıqları qonaqpərvərliyə və səmimi münasibətə heyran qaldıqlarını bildirib. Veriliş barədə məlumat verən qonaq orada Azərbaycanda tarixi-mənəvi irsin və etnik-mədəni müxtəlifliyin qorunması, dinə dövlət qayğısı, tolerantlıq mühitinin öz əksini tapacağını bildirib.

# Mübariz Qurbanlı: "Multikulturalizmin alternativi müharibədir, fəlakətdir, qarşıdurmadır"




“Ulu Öndər Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunan konfrans Ümummilli Liderin ideyalarının beynəlxalq miqyasda daha geniş təbliğinə böyük töhfə verir. Heydər Əliyevin həyata keçirdiyi siyasətdə multikultural və tolerant dəyərlər hər zaman diqqət mərkəzində olub. Ümumiyyətlə, tolerantlıq, multikultural dəyərlər yeni terminlər kimi istifadə olunsa da, əslində Azərbaycan xalqının adət-ənənələrində, xarakterində, milli xüsusiyyətlərində əsrlər boyu yaşayıb və bu gün də davam etməkdədir”.

Bu sözləri Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı “Heydər Əliyev: multikulturalizm və tolerantlıq ideologiyası” mövzusunda I Beynəlxalq elmi konfransın aprelin 10-da Azərbaycan Dillər Universitetində keçirilən açılışı zamanı bildirib.

Mübariz Qurbanlı deyib ki, Prezident İlham Əliyevin də siyasətində tolerant və multikultural dəyərlərin əhəmiyyətli yer tutduğunu hər zaman görməkdəyik: “Azərbaycanın multikultural dəyərlərinin beynəlxalq miqyasda təbliği və təşviqində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi də çox böyük işlər görüb. Ötən illər ərzində Kamal Abdullayevin rəhbərliyi ilə biz dəfələrlə müxtəlif xarici ölkələrdə Azərbaycanın multikultural dəyərlərinin təbliği və təşviqi ilə əlaqədar beynəlxalq konfranslarda iştirak etmişik, Qafqaz Müsəlmanları İdarəsinin rəhbəri Şeyxülislam Allahşükür Paşazadə də bu tədbirlərə qatılıb. Bu tədbirlərin coğafiyası olduqca böyükdür, İspaniya, Finlandiya, Avropanın müxtəlif ölkələri, Böyük Britaniya, Almaniya və s. kimi ölkələrdə keçirilən tədbirlərdə Azərbaycanın multikultural dəyərləri ətraflı şəkildə insanlara çatdırılıb. Ümumiyyətlə, bugünkü dünyamıza nəzər salsaq, bugünkü dünyada gedən prosesləri diqqətlə izləsək, multikulturalizmin nə qədər böyük əhəmiyyət kəsb etdiyini aydın şəkildə görə bilərik. Multikulturalizmin alternativi varmı? Multikulturalizmin alternativi müharibədir, fəlakətdir, qarşıdurmadır, dini toqquşmadır. Və biz bu cür toqquşmaları Yaxın Şərqdə görməkdəyik. Multikulturalizm, multikultural dəyərlər, bir-birinə tolerant yanaşma dövlətlərin, xalqların yaxınlaşmasına çox böyük təsir göstərən amildir. Avropada da multikulturalizmin iflasa uğradığını söyləyənlər var. Multikulturalizm iflasa uğrayırsa, onda belə çıxır ki, ayrı çıxış yolu qalmır, toqquşmadan qaçmaq mümkün deyil. Ancaq biz imkan verməməliyik ki, multikultural dəyərlər iflasa uğrasın. Burada hər kəs öz sözünü deməlidir, burada bütün ölkələrin ictimaiyyəti bir araya gəlməlidir və bütün insanlıq bəşəriyyəti daha böyük təhlükələrdən xilas etmək üçün səfərbər olmalıdır. Ona görə də Azərbaycan Dillər Universitetinin, Yeni Azərbaycan Partiyasının, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin birgə təşkilatçılığı ilə beynəlxalq miqyasda keçiriləcək konfrans çox əhəmiyyətlidir. Bu gün çox mühüm bir tədbirin, konfransın açılışını həyata keçiririk. Bu konfransın davamı böyük coğrafiyanı əhatə edəcək”.

# DÖVLƏT KOMİTƏSİNDƏ XARİCİ JURNALİSTLƏRLƏ GÖRÜŞ KEÇİRİLİB

Aprelin 10-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Fransa, İtaliya, Yunanıstan və digər Avropa ölkələrindən Azərbaycana səfər edən bir qrup jurnalisti qəbul edib və onları maraqlandıran sualları cavablandırıb.

Dövlət Komitəsinin sədri xarici jurnalistlərə ölkəmizdə mövcud olan dini durum və DQİDK-nın fəaliyyəti barədə ətraflı məlumat verib. Azərbaycan əhalisinin əksər hissəsinin müsəlman olduğunu qeyd edən Komitə sədri ölkəmizdə müxtəlif dini konfessiyaların əsrlərdir sərbəst və qarşılıqlı anlaşma şəraitində fəaliyyət göstərdiklərini deyib. Diqqətə çatdırıb ki, ölkəmizdə dini konfessiya nümayəndələrinin hər biri öz maddi və mənəvi mədəniyyətini, dilini, tarixi yaddaşını, mentalitetini qoruyub-saxlamaq imkanına malikdir. O, ölkəmizdə dövlət tərəfindən bütün dini qurumlara, o cümlədən qeyri-islam icmalarına mütəmadi maliyyə yardımı edildiyini vurğulayıb.



Dövlət Komitəsinin sədri xarici jurnalistlərin ölkəmizin nümunəvi dini tolerantlıq modeli, ictimaiyyət tərəfindən maraqla qarşılanan vəhdət namazı və radikalizmin qarşısının alınması istiqamətində görülən işlər barədə sualları cavablandırıb.

Səmimi qəbula görə təşəkkürlərini bildirən jurnalistlər ölkəmizə səfərləri müddətində Azərbaycanın dinamik inkişafının, yüksək səviyyəli multikultural mühitin mövcudluğunun şahidi olduqlarını deyiblər.

Qeyd edək ki, görüşdə Rus Pravoslav Kilsəsinin Bakı-Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein, Dağ Yəhudiləri dini icmasının rəhbəri Milix Yevdayev, Roma Katolik kilsəsinin Azərbaycandakı apostol prefekturasının nümayəndəsi Vladimir Baksa da iştirak ediblər.

# YENİ QEYDİYYATDAN KEÇMİŞ DİNİ İCMALARA ŞƏHADƏTNAMƏLƏR TƏQDİM EDİLİB



Aprelin 9-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) tərəfindən dövlət qeydiyyatına alınan bir qrup dini icmaya şəhadətnamələr təqdim edilib. Bu məqsədlə təşkil edilmiş toplantıda Dövlət Komitəsi sədrinin birinci müavini, Aparat rəhbəri, şöbə müdirləri və yeni qeydiyyatdan keçmiş dini icmaların sədrləri iştirak edib.

Ölkəmizin nümunəvi dövlət-din modelindən danışan Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı bildirib ki, müstəqilliyimizi bərpa etdikdən sonra bütün sahələrdə olduğu kimi, dövlət-din münasibətlərində də sürətli inkişafa nail olunub, dövlətçiliyimizə, milli-mənəvi dəyərlərimizə, dinimizə uyğun qaydalar müəyyənləşdirilib. Sədrin birinci müavini bu müdrik siyasətin hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini qeyd edib. Diqqətə çatdırıb ki, Azərbaycan tolerantlığı, multikultural ənənələrə sadiqliyi ilə bütün dünyada örnək göstərilən ölkələrdəndir. Dövlət başçısının sərəncamları, tapşırıq və tövsiyələri ilə ölkəmizdə bir sıra məscid, kilsə, sinaqoqlar tikilib və bərpa olunub, mütəmadi olaraq müsəlman və qeyri-müsəlman dini icmalara maliyyə yardımı göstərilir, dini bayramlar yüksək səviyyədə qeyd olunur.

Yeni qeydiyyatdan keçən dini icma rəhbərlərinə tövsiyələrini verən Səyyad Salahlı cəmiyyətimizi xurafatdan, mövhumatdan uzaq, saf dini biliklərlə maarifləndirməyin önəminə toxunub. İcma sədrlərini tarixi irsimizin mühüm hissəsi olan dinimizin, milli-mənəvi dəyərlərimizin ictimaiyyətə düzgün çatdırılması işində aktiv olmağa çağırıb və onlara fəaliyyətlərində uğurlar arzulayıb.

Sonra 3-ü qeyri-islam dini icması olmaqla 15 dini quruma qeydiyyat şəhadətnamələri təqdim edilib.

Masallı şəhəri “Cümə” məscidi dini icmasının sədri Mirqabil Hüseynov çıxış edərək dinə, dindarlara diqqət və qayğıya görə dindarlar adından Prezident İlham Əliyevə dərin minnətdarlığını bildirib.

# DÖVLƏT-DİN MÜNASİBƏTLƏRİ XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ DƏ MÜKƏMMƏL TƏNZİMLƏNİRDİ

***Hər bir xalqın formalaşması və təkamülü prosesində mütərəqqi fikir və ideyalar əsas səfərbəredici amil kimi çıxış edir. Bu fikir və ideyaları özündə cəm edən milli ideologiyalar olmadan ayrı-ayrı xalqların nəinki inkişafından, hətta mövcudluğundan danışmaq çətindir.***

Hər hansı xalqın bütünlüyünü təmin edən birlik və həmrəylik konsepsiyasını milli ideyasız reallaşdırmaq mümkünsüzdür.

Azərbaycan xalqının milli ideologiyası onun tarixən keçdiyi yolu, tarixi adət-ənənələri, sahibləndiyi milli-mənəvi dəyərləri barədə dolğun təsəvvür yaradır. Xüsusən XIX əsrin sonlarında baş verən ictimai-siyasi hadisələr, maarifçilik hərəkatının genişlənməsi, cəhalət və mövhumata qarşı mübarizə məqsədilə atılan addımlar milli ideologiyamızın zənginləşməsinə mühüm töhfə olmuşdur. XX əsrin əvvəllərində türkçülük, müstəqillik, milli dövlətçilik kimi ideya və şüarların beyinlərdə hakim kəsilməsi isə xalqın milli istiqlaliyyət uğrunda mübarizəsi ilə nəticələnmişdir.

1918-ci il may ayının 28-də Tiflisdə müsəlman Şərqində ilk demokratik, hüquqi, dünyəvi dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) elan edilməsi azərbaycanlıların ilk növbədə yüksək milli ideyaya və yenilikçi düşüncə tərzinə malik olmasının bariz göstəricisidir. Milli dövlətçilik tariximizdə ilk dəfə olaraq məhz AXC dövründə xalqın demokratik hüquq və azadlıqları bərqərar edilmiş, müsəlman dünyasında ilk dəfə olaraq qadınların seçki hüququ tanınmış, etnik və dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlar bərabər hüquqlara yiyələnmiş, Milli Ordu, parlament, hüquq mühafizə orqanları, ən nəhayət, ilk ali təhsil müəssisəsi olan Bakı Dövlət Universiteti yaradılmışdır.

Qeyd edilən ilklərə imza atan Xalq Cümhuriyyəti ölkədə dini sahənin inkişafına da xüsusi qayğı ilə yanaşaraq, dövlətlə dindar kontingent arasında münasibətlərin yüksək səviyyədə nizamlanması istiqamətində mühüm tədbirlər həyata keçirmişdir. Cəmi 23 ay yaşamasına baxmayaraq, xalqın vicdan azadlığının təmin edilməsi məqsədilə mütərəqqi addımlar atılmışdır. Doğrudur, bu qısa vaxt ərzində milli hökumət və parlament vicdan azadlığı haqqında ayrıca dekret və ya qərar qəbul etməyə imkan tapmasa da, onun tutduğu mövqe aydın idi. Belə ki, dövlətçilik tariximizdə ilk Konstitusiya aktı olan İstiqlal Bəyannaməsində dini, sinfi, silki və cinsi mənsubiyyətindən asılı olmayaraq hər kəsə bərabər şəraitin yaradılması ideyasının öz təsbitini tapması, eləcə də Azərbaycanda yaşayan bütün konfessiya nümayəndələrinin parlamentdə təmsil olunması vicdan azadlığı məsələsinin cümhuriyyətin dövlətçilik fəaliyyətinin əsasını təşkil etməsi fikrini yaradır. Yeri gəlmişkən qeyd edək ki, ilk parlamentimiz 80 müsəlman, 10 rus, 1 alman və 1 yəhudi millət vəkili əsasında formalaşmışdır. 1918-ci ilin mart soyqırımından yarım il keçməsinə baxmayaraq, parlamentdə 21 erməni nümayəndəsi də təmsil olunmuşdur. Ozamankı tarixi şəraitdə bu faktın özü Azərbaycan xalqının demokratik təbiətinin, insan haqlarına göstərdiyi dərin hörmətinin və əsrlər boyu sahib olduğu multikultural dəyərlərə sadiqliyinin parlaq təcəssümüdür.

Xalq Cümhuriyyəti digər məsələlərdə olduğu kimi, vicdan azadlığı problemi sahəsində də demokratik mövqedə dayanaraq dinə biganə yanaşan, yaxud dini qəbul etməyənlərin cəzalandırılması və ya hüquqlarının məhdudlaşdırılması üçün tədbirlər görməmiş, əksinə, dindarlarla dinə inanmayan ateist vətəndaşların dinc, yanaşı yaşaması üçün şərait yaratmışdır. Hər kəsin istədiyi dinin qaydalarına riayət etmək, dini mənsubiyyətini dəyişmək, dini təşkilatların işində sərbəst iştirak etmək, habelə heç bir dini qəbul etməmək, dindarların heysiy-yətinə toxunmamaq prinsipini əsas götürmüşdür.

Tarix şahidlik edir ki, o vaxta qədər çar imperiyası azərbaycanlılar arasında dini məzhəb ayrılığını daha da dərinləşdirmək siyasəti həyata keçirmişdir. Belə ki, 1872 və 1917-ci illərdə imperiya tərəfindən azərbaycanlıları şiə və sünni olmaqla məzhəblərə parçalayan qərəzli sərəncamlar verilmiş, onların ayrıca ruhani idarələri yaradılmışdır. Məscidlərin əmlakı üzərində nəzarət və sahiblik çar Rusiyasının hakimiyyət orqanlarına məxsus olmuşdur. İş o yerə çatmışdı ki, pravoslav kilsəsinin icazəsi olmadan hər hansı məscid fəaliyyət göstərə bilməzdi.

Milli Şura Tiflisdə Azərbaycanın istiqlalını bəyan edən zaman Cənubi Qafqaz Şiə və Sünni İdarələri də bu şəhərdə yerləşirdi. Qafqazda müstəqil dövlətlərin yaradılması və bu dövlətlər arasında mövcud münasibətlər region müsəlmanlarının vahid idarədə birləşməsini demək olar ki, mümkünsüz etmişdir. Ona görə də yeni yaradılmış Azərbaycan hökuməti Cənubi Qafqaz ruhani idarələrinin Azərbaycana, Gəncə şəhərinə kö-çürülməsini məqsədəuyğun görmüşdür. Məhz Gəncədə 1918-ci il sentyabr ayının 1-də ilk olaraq ruhani rəhbərlər tərəfindən şiə və sünnilərin "Məşixət" adı altında vahid idarədə birləşməsi çarizmin məzhəb ayrılıqlarından istifadə edərək, Azərbaycan dindarları arasında ədavət yaratmaq niyyətlərinin iflasa uğradığını göstərmişdir. 20 avqust 1918-ci il tarixli qərar ilə yeni yaradılmış dini idarənin ştatı təsdiq edilmişdir. O dövrün tanınmış din xadimi Axund Əli Ağazadə şeyxülislam, "Əhrar" partiyasının yaradıcılarından olan Mustafa Əfəndi Əfəndizadə isə müfti təyin edilmişdir.1920-ci ilin mart ayında milli hökumət tərəfindən "Məşixət" sədrlərinə nazir köməkçiləri ilə eyni status verilməsi barədə sərəncam imzalanmışdır.

"Məşixət" hər hansı şəxsi ruhani kimi vəzifəyə təyin edərkən yerli rəhbərliyin həmin şəxs barədə rəyini, başqa sözlə desək, onun haqqında xasiyyətnaməni nəzərə almışdır. Lakin bu heç də o demək deyildi ki, təyinat mülki rəhbərliyin rəyindən asılı olaraq verilmişdir. Çar Rusiyası dövründən fərqli olaraq Xalq Cümhuriyyəti parlamentinin qəbul etdiyi yeni qanunlara görə ruhani vəzifələrə təyin etmə birbaşa ruhani idarəsinin səlahiyyətinə verilmişdir. Bu dövrdə idarə bir qurum olaraq güclənmiş və fəaliyyət sferasını genişləndirmişdir.

Milli hökumət Bakıya köçdükdən sonra sosial-iqtisadi imkanların məhdud olmasına baxmayaraq, yüksək rütbəli din xadimlərinin əməkhaqqı artırılmışdır. Dövlət tədbirlərində din xadimləri iştirak etmiş, parlament müzakirələrinə dəvət edilmişlər. Müsəlman dininə aid məsələlər müzakirə edilərkən şeyxülislam və müfti həlledici səslə hökumətin iclaslarında iştirak etməli olmuşlar. Verilmiş bu qərarlar sözsüz ki, ruhanilərin nüfuzunu qaldırmağa və məsuliyyətlərini artırmağa xidmət etmişdir.

Həmçinin erməni quldurları tərəfindən dağıdılmış məscid və dini ibadət ocaqlarının bərpasına, yenidən qurulmasına böyük qayğı göstərilmişdir. Milli hökumət qısa müddət ərzində Bakıda "Təzəpir" məscidinin, eləcə də Şəki, Gəncə, Şamaxı, Kürdəmir rayonlarında dağıdılmış məscidlərin bərpası istiqamətində müvafiq addımlar atmışdır.

Bərabərlik ideyası təhsil sahəsində də həyata keçirilmiş, ümumi ictimai təhsil, ibtidai və orta məktəblərin milliləşdirilməsi, milli azlıqların öz dillərində və rus dilində oxuması üçün qanun layihəsinin hazırlanması zəruri hesab edilmişdir. O zaman Gürcüstanda gürcü-pravoslav kilsəsinin din siyasətində aparıcı rol oynamasına baxmayaraq, Azərbaycanda dinlərin bir-birindən üstünlüyü məsələsi müzakirə mövzusu belə olmamışdır.

1918-ci il 7 sentyabr fərmanı ilə bütün ibtidai məktəblərdə qeyri-müsəlman tələbələr üçün din və onların ana dili tədrisi tətbiq edilmiş, bu tədris üçün xərcləri dövlət öz üzərinə götürmüşdür. Həmçinin xalq maarif naziri yəhudi məktəblərinin rəhbəri Y.Baysband və E.Şapiroyanın təşkil etdikləri yəhudi dili, yəhudi xalqının tarixi və ədəbiyyatının kurslarına dinləyici yazdırmağa icazə vermişdir. Bu məktəblərə hər ay dövlət tərəfindən 10 min rubl məbləğində maliyyə vəsaiti ayrılmışdır.

Azərbaycan hökuməti tərəfindən alman koloniyalarında fəaliyyət göstərən məktəblər də dəstəklənmişdir. Belə ki, alman koloniyalarındakı müəllimlərin hər birinə hər ay 90 rubl ödənilmişdir.

Ümumiyyətlə, qeyri-müsəlman din mənsubları hərtərəfli qayğı ilə əhatələnmişdilər. Bakı Rus Pravoslav Kilsəsi, Baptist və Molokan dini cəmiyyətləri, yəhudi ravvinliyi, hətta erməni yeparxiyası da hökumət tərəfindən yardımlar almış, onların fəaliyyətinə hər cür şərait yaradılmışdır.

Dini bayram və mərasimlərin qeyd edilməsinə xüsusi diqqət ayrılmışdır. Belə ki, 1918-ci ilin sentyabr ayında Bakıya köçən milli hökumətin həyata keçirdiyi ilk tədbir Qurban bayramının qeyd edilməsi olmuşdur. İslam təqviminə uyğun olaraq cümə günləri istirahət günü elan edilmişdir.

Milad bayramı günləri, yəni dekabrın 25-26-da müvafiq dini etiqadlı dövlət qulluqçuları və şagirdlər işdən və məşğələlərdən azad olunmuşlar. Eyni zamanda hökumətin 1920-ci il müvafiq aprel sərəncamı ilə xristian etiqadlı dövlət qulluqçuları üçün Pasxa bayramı günlərində 5 gün qeyri-iş günləri hesab edilmişdir. Müsəlmanlar üçün istirahət günü cümə günü idisə, qeyri-müsəlmanlar üçün istirahət günü bazar günü idi.

AXC yarandığı gündən etibarən üç mühüm qayəni özünün həyat idealına çevirmişdir: türkçülük, islamçılıq və müasirlik. Bu ideyaların baza şəklində əksini tapdığı müqəddəs dövlət rəmzi onun 3 rəngli bayrağı olmuşdur. Təkcə bu 3 güclü amilin birləşdirilməsi özlüyündə Xalq Cümhuriyyətinin dünyəviliyə və müasirliyə olan yüksək diqqətinin göstəricisidir.

Təqdirəlayiq haldır ki, bütövlükdə Azərbaycanın hər bir şəhər və kəndində dini dəyərlərin təbliğ edildiyi məscidlərin yanında, yaxud ayrılıqda fəaliyyət göstərmiş mədrəsə və mollaxanalarda uşaqlara dinlə yanaşı, dünyəvi elmlər də tədris edilmişdir. Ümumiyyətlə, AXC dövründə qeyri-dini tədris müəssisələri şəbəkələrinin genişləndirilməsi, texniki, təbiət, hüquq sahəsində kadrların hazırlanmasına xüsusi diqqətin ayrılması, bu məqsədlə Qərb ölkələrinin tanınmış ali təhsil ocaqlarına azərbaycanlı gənclərin göndərilməsi və ən nəhayət, hökumətin tərkibində din xadimlərinin olmaması dünyəviliyi göstərən əsas amillərdir.

Hələ müstəqillik ərəfəsində yaranan İslam təmayüllü partiyalar da dünyəvi zəmində formalaşmışdır. Sırf dini zəmində yaranmış partiyalar qısa ömürlü olmuşlar. Cümhuriyyət dövründə bu partiyaların bir çoxu "İttihadi-İslam", "Əhrar" kimi partiyaların ətrafında toplaşaraq, millətin tərəqqi ideyalarını müqəddəs İslam təlimi və milli ideya zəminində birləşdirmiş, parlament tipli partiyaya çevrilmişdilər.

Qeyd edilənlərdən belə nəticə hasil olur ki, AXC-də din əqidə idi, lakin hakimiyyət deyildi. Dövlətin idarə edilməsində din iştirak etməsə də, din dövlət tərəfindən himayə edilmişdir. Ruhani idarəsi yalnız dini işlərlə məşğul olduğundan dövlət din siyasətini hökumət orqanları vasitəsilə həyata keçirmişdir. Əvvəlcə maarif, daha sonra Fətəli xan Xoyski tərəfindən təşkil edilmiş II hökumət zamanı Himayədarlıq naziri həm də dini işlərə rəhbərlik etmişdir.

Qeyd edək ki, milli hökumət tərəfindən müasirliyə və dünyəviliyə uyğun gəlməyən bir sıra şəriət qanunları qəbul edilməmişdir. Belə ki, təhsil sisteminin dünyəviləşməsi, qızların dünyəvi məktəbdə oxuması, qadınlara seçki hüququnun verilməsi, cinayət işləri ilə bağlı iddiaların yazılması haqqında dini idarənin təklifləri hökumət tərəfindən geri qaytarılmışdır. Eyni zamanda şəriət məhkəmələrinin ləğvi və dünyəvi məhkəmə sisteminin yaradılması da AXC hakimiyyətinin müasir-

Davamı səh. 9

Əvvəli səh. 8

liyə doğru istiqamətlənən siyasi xəttinin göstəricisidir.

Azərbaycanın ən yeni tarixində Cümhuriyyətin mövcudluğunun xüsusi əhəmiyyəti ölkəmizin Sovet Sosialist Respublikaları İttifaqı tərkibində formal da olsa bərabərhüquqlu respublika kimi yer tutmaqla xalqımızın dövlətçilik ənənələrinin aradan qalxmasına imkan verməməsi və müstəqillik ideyalarını xalqımızın təfəkküründə möhkəmləndirməsi olmuşdur. Təsadüfi deyil ki, XX əsrin 80-ci illərində başlayan xalq hərəkatı zamanı meydanlarda Xalq Cümhuriyyətinin üçrəngli bayrağı yenidən dalğalandırılmış və Azərbaycan tarixi proseslərin gedişatından yararlanaraq 1991-ci ildə yenidən öz müstəqilliyinə nail olmuşdur. Müstəqilliyini bərpa edən xalqımız Azərbaycan Xalq Cümhuriyyətinin qısa-müddətli fəaliyyətinin zəngin ənənələrindən istifadə etmiş və bu tarixi varislik üzərində müstəqil Azərbaycan dövlətini yaratmışdır. Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktının 2-ci maddəsində bu ideya açıq-aydın öz əksini tapmışdır: "Azərbaycan Respublikası 1918-ci il mayın 28-dən 1920-ci il aprelin 28-dək mövcud olmuş Azərbaycan Respublikasının varisidir".

Xalq Cümhuriyyətinin miras qoyduğu milli dövlətçilik ənənələrinin dövrümüzədək yaşaması və reallaşması, heç şübhəsiz, Ulu Öndər Heydər Əliyevin bilavasitə adı ilə bağlıdır. Xatırlayaq ki, keçən əsrin 90-cı illərinin əvvəllərində ölkədə yaranmış xaotik vəziyyət, separatizm, ermənilərin Azərbaycana qarşı ərazi iddiaları, siyasi çəkişmələr və vətəndaş qarşıdurması Azərbaycanı müstəqilliyini itirmək təhlükəsi ilə qarşı-qarşıya qoymuşdu. Belə bir dövrdə Ulu Öndər xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə gəlməsilə ölkəmizin müstəqilliyinin qorunub saxlanılmasına nail olmuşdur. Ümummilli Liderin uğurlu daxili və xarici siyasəti nəticəsində daxili stabillik təmin edilmiş, Azərbaycanın dünya dövlətləri ilə, o cümlədən beynəlxalq təşkilatlarla geniş əlaqələri qurulmuşdur. Həyata keçirilmiş müvafiq ardıcıl tədbirlərin məntiqi yekunu olaraq Azərbaycanın strateji inkişaf dinamikasının əsası qoyulmuş, dövlət müstəqilliyimiz möhkəmləndirilmişdir.

Azərbaycan xalqının tarixi keçmişinə, mədəni irsinə və mənəvi dəyərlər sisteminə sönməz məhəbbət duy-ğularıyla yanaşan ulu öndər Azərbaycana rəhbərlik etdiyi dövrlərdə hər zaman xalqımızın çoxəsrlik tarixinin öyrənilməsini əsas vəzifələrdən biri kimi irəli sürmüşdür. Hələ 17 noyabr 1990-cı il tarixdə Ulu Öndər AXC-nin dövlət bayrağını Naxçıvan MR-in bayrağı kimi qəbul etmiş, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını böyük inqilabi hadisə kimi qeyd etmişdir.

Xalq Cümhuriyyətinin yaranmasının 80 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 30 yanvar 1998-ci il, AXC-nin 80 illiyinə həsr olunmuş əsərlərin nəşr edilməsi haqqında 22 fevral 1998-ci il və bu yubiley münasibətilə ümumrespublika mərasiminin keçirilməsi haqqında 24 may 1998-ci il tarixli sərəncamları Ümummilli Liderin AXC tarixinə olan xüsusi diqqətinin bariz göstəricisidir.

1998-ci il mayın 27-də Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə Ulu Öndər Heydər Əliyev çıxışında Xalq Cümhuriyyətinin yaranmasını Azərbaycan xalqının həyatında tarixi hadisə və xalqımızın dövlətçilik salnaməsinin parlaq səhifəsi adlandırmışdır: "Azərbaycan Xalq Cümhuriyyətinin yaranması bizim vaxtilə itirilmiş dövlətçiliyimizi bərpa etdi. Eyni zamanda Azərbaycan Xalq Cümhuriyyətinin yaranması xalqımızın tarixində ilk dəfə demokratik prinsiplər əsasında müstəqil Azərbaycan dövlətinin, hökumətinin yaranmasının əsasını qoydu. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, İstiqlal Bəyannaməsinin elan olunması böyük zəka, uzaqgörənlik, cəsarət, iradə, qəhrəmanlıq tələb edirdi. Bizim dəyərli siyasi xadimlərimiz o gün, o il, o ay bu tarixi addımı atdılar. ...Biz bu gün iftixar hissi ilə deyə bilərik ki, bütün bu çətinliklərə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti yaşamış, fəaliyyət göstərmiş və iki il müddətində çox böyük işlər görmüş, Azərbaycanın müstəqil gələcəyinin əsasını qoymuşdur".

Ulu Öndər AXC-nin yaradıcılarının və onun iki illik fəaliyyətini təmin edən bütün ziyalılarımızın - Məhəmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski, Əlimərdan bəy Topçubaşov, Nəsib bəy Yusifbəyli, Həsən bəy Ağayevin və digərlərinin Azərbaycan xalqı qarşısında böyük xidmətlər göstərdiyini, xalqımızın onların xidmətlərini bu gün minnətdarlıq hissi ilə yad etdiyini, onların gördüyü işlərin və əziz xatirələrinin Azərbaycan xalqının qəlbində əbədi yaşayacağını bildirmişdir: "Biz Azərbaycan Xalq Cümhuriyyətinin varisləriyik. 1991-ci ildə Azərbaycanda müstəqillik elan edilərkən yazılıbdır ki, 1920-ci ildə itirilmiş müstəqillik bərpa olunur. Mən bu gün qürurla deyirəm ki, biz Azərbaycan Xalq Cümhuriyyətinin sədaqətli və layiqli varisləriyik. 1918, 1919, 1920-ci illərdə Azərbaycanda əsası qoyulmuş demokratiya, demokratik dövlət quruculuğu bu gün respublikamızda sürətlə həyata keçirilir, inkişaf etdirilir".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də Ulu Öndər kimi AXC-nin xalqımızın dövlətçilik tarixində oynadığı əhəmiyyətli rola hər zaman diqqətlə yanaşmışdır. Prezident İlham Əliyev 18 dekabr 2006-cı ildə Bakı şəhərində İstiqlal muzeyinin yaradılması və İstiqlal abidəsinin ucaldılması haqqında sərəncam imzalamışdır. 25 may 2007-ci ildə dövlət başçısının iştirakı ilə Bakı şəhərində İstiqlal abidəsinin açılışı zamanı dövlət başçısı Azərbaycan Xalq Cümhuriyyətinin 1920-ci ilin aprelində süqut etməsinə baxmayaraq, onun aşıladığı müstəqillik hisslərinin xalqımızın yaddaşından heç vaxt silinmədiyini, məhz ona görə də XX əsrin sonunda yenidən tarixi şans qazanmış ölkəmizin mürəkkəb siyasi vəziyyətdə öz suverenliyini və müstəqilliyini qoruyub saxlamağı bacardığını vurğulamışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 15 fevral 2008-ci ildə AXC-nin 90 illiyinin, 22 noyabr 2013-cü ildə isə Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri, Azərbaycan Milli Şurasının sədri Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 130 illik yubileyinin keçirilməsi haqqında imzaladığı sərəncamlar, həmçinin AXC-nin şərəfinə Bakının İstiqlaliyyət küçəsində ucaldılmış abidənin Prezident İlham Əliyev tərəfindən 28 may - Respublika Günü ilə əlaqədar mütəmadi olaraq ziyarət edilməsi dövlət başçısının cümhuriyyətə və onun qurucularına verdiyi yüksək qiymətin bariz təcəssümüdür.

Prezident İlham Əliyevin 16 may 2017-ci ildə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" və 2018-ci ilin ölkədə "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilməsi ilə əlaqədar 10 yanvar tarixində imzaladığı sərəncamların ictimai-siyasi, elmi-tarixi mahiyyəti xüsusilə əhəmiyyətlidir: "Bu il biz müstəqilliyimizin yüz illiyini qeyd edəcəyik. Yüz il bundan əvvəl müsəlman aləmində ilk dəfə olaraq demokratik respublika yaradılmışdır. Biz fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıb və bir daha bütün dünyaya nümayiş etdirib ki, Azərbaycan xalqı böyük xalqdır, istedadlı xalqdır, azad xalqdır".

Bu sərəncamlarla əlaqədar ölkədə və ölkə xaricində keçiriləcək silsilə tədbirlər Xalq Cümhuriyyəti tarixinin araşdırılmasında yeni səhifənin açılmasına xidmət edəcək və müasir Azərbaycan Respublikasının demokratik ideyaların möhkəm təməli üzərində uğurla irəlilədiyini dünyaya nümayiş etdirəcəkdir.

**Mübariz QURBANLI,**
Dini Qurumlarla İş üzrə
Dövlət Komitəsinin sədri

***"Azərbaycan" qəzeti***
04 aprel 2018-ci il, № 74

# SƏYAVUŞ HEYDƏROV: DİNİ TƏHLÜKƏSİZLİK MİLLİ TƏHLÜKƏSİZLİYİMİZİN BAŞLICA TƏRKİB HİSSƏSİDİR

Ən qədim sivilizasiya mərkəzlərindən biri olan Azərbaycan həmişə müxtəlif millətlərin və dinlərin sülh şəraitində birgə yaşayışı baxımından nümunə olub. Ölkəmizdə milli-mənəvi və dini dəyərlərin zəngin inkişaf tarixi və ənənələri var. Hazırkı mərhələdə ölkədə bərqərar edilmiş milli və dini tolerantlıq, eləcə də multikulturalizm mühitinin qorunması və möhkəmləndirilməsi dövlət qarşısında duran başlıca vəzifələrdən hesab olunur. Lakin qeyd olunmalıdır ki, bu gün sürətlə dəyişən və ziddiyyətli təzahürləri ilə qloballaşan dünyada son dərəcə mürəkkəb proseslər baş verir. Yaşamaqda olduğumuz müasir gerçəklik gələcəyi proqnozlaşdırmadan, qlobal çağırışları qiymətləndirmədən uğurlu inkişafa nail olmağın qeyri-mümkünlüyünü diktə edir. Məhz belə bir şəraitdə dövlətin dayaqlarının güclü olması, idarəetmədə praqmatik, uzaqgörən, düşünülmüş və strateji siyasətin həyata keçirilməsi son dərəcə zərurətə çevrilib.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov deyib.

Komitənin sədr müavini bildirib ki, Azərbaycana nəzər saldıqda bu zərurət daha qabarıq formada özünü büruzə verir. Bunu bir sıra amillərlə səciyyələndirmək mümkündür. Belə ki, Azərbaycan uğurlu inkişaf modelini tətbiq edən mütərəqqi yanaşmalara sahib olmaqla yanaşı, tarixinə və dəyərlərinə sadiq olan müsəlman ölkəsidir. Şübhəsiz ki, bir sıra beynəlxalq tədbirlərə ev sahibliyi edən, ictimai-siyasi sabitliyi təmin etmiş, günü-gündən müasirləşən və nüfuzu artan bir müsəlman ölkəsini istəməyən qüvvələr də az deyil. Belə ki, Azərbaycanın öz multikultural dəyərləri ilə dünyada islamofobiya adı altında müsəlman ölkələrinə yönəlmiş tənqid və etirazları puça çıxarması ölkəmizə qarşı təhdid və təzyiqlərin daha da artması ilə nəticələnib. Təəssüf doğuran məqamlardan biri də budur ki, bəzi İslam ölkələri daxilində də bu məkrli niyyətlərə dəstək verən qüvvələr mövcuddur.

Olduqca mürəkkəb, qlobal güclərin maraqlarının bir çox sferada toqquşduğu, habelə siyasi iddiası böyük olan dövlətlərin mübarizə meydanına çevrilən regionda yerləşən ölkəmizə qarşı bir sıra istiqamətlərdən, o cümlədən dini mövqedən təhdidlərin səngimədiyi müşahidə olunur. Bu kontekstdə ən önəmli amillərdən biri də dini təhlükəsizlik məsələsidir. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan milli təhlükəsizlik konsepsiyasının başlıca komponentlərindən biri məhz dini təhlükəsizlikdir. Qeyd edilən fenomen İslam ölkələri baxımından daha da aktualdır. Yaxın Şərq təcrübəsi və orada hazırda davam edən proseslər bir daha açıq şəkildə göstərdi ki, dini təhlükəsizlik təmin olunmadan milli təhlükəsizliyi təmin etmək qeyri-mümkündür. Milli təhlükəsizlik təmin edilmədən isə nə ictimai-siyasi sabitlikdən, nə demokratiyanın inkişafından, nə də hüquq və azadlıqların təmin edilməsindən bəhs etmək olar. Sistemləşdirərək deyə bilərik ki, dini təhlükəsizlik milli təhlükəsizliyin başlıca tərkib hissəsidir. Azərbaycan mürəkkəb beynəlxalq vəziyyətə, regionda mövcud olan təhdidlərə, müxtəlif səpkili təzyiqlərə, yad dini ideologiyaların idxal edilməsi cəhdlərinə baxmayaraq, güclü siyasi iradə nümayiş etdirərək dini təhlükəsizliyi təmin edib və bu siyasətin hazırkı dövrdə davam etdirilməsi son dərəcə vacibdir.

Yuxarıda qeyd edilənlərə əsaslanaraq perspektivdə təhlükə və təhdidlərin artan xətlə və daha aqressiv şəkildə inkişaf edəcəyi şübhə doğurmur. Başda erməni lobbisi olmaqla ölkəmizə qarşı məkrli niyyətləri olan qlobal güclər antimilli qüvvələrlə birləşərək güclənən dövlətimizə qarşı siyasi, dini və digər mövqelərdən davamlı şəkildə təxribat xarakterli çirkin kampaniyalar apararlar. Azərbaycanın nüfuzu, iqtisadi uğurları artdıqca bütün sahələr üzrə bu tipli kampaniyalar daha da arta bilər. Belə olan şəraitdə ölkəmizin xüsusilə təhlükəsizlik sahəsində çevik, dəqiq, operativ və balanslaşdırılmış siyasətə ehtiyacı əvvəlki illərə nisbətdə daha çoxdur. Aparılan təhlillər, dünya ölkələrinin praktik təcrübəsi onu göstərir ki, sadalanan təhdid və təhlükələrlə mübarizə aparmaq və bu mübarizədə nəticə əldə etmək üçün güclü dövlət - güclü rəhbər tandemi birinci şərtdir. Möhkəm siyasi iradə, qətiyyətli mövqe, xalqla birlik, analitik təfəkkür, beynəlxalq nüfuz, gələcəyə dair mütərəqqi baxış və idarəçilik təcrübəsi lider-rəhbər portretinin başlıca komponentləridir. Əgər güclü dövlət-güclü rəhbər tandemi pozularsa, böyük zəhmət nəticəsində əldə edilmiş ictimai-siyasi sabitlik, ümumilikdə milli təhlükəsizliyimiz, habelə ölkəmizin rifahı və uğurlu gələcəyi qlobal təhdidlər və təhlükələrlə üzləşə bilər.

# "Dini icmalar və gənclər: dini radikalizmlə mübarizə və birgə fəaliyyətin təşkili" mövzusunda seminar-müşavirələr keçirilib



**KÜRDƏMİRDƏ**

Aprelin 18-19-da Kürdəmirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Kürdəmir Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Dini icmalar və gənclər: dini radikalizmlə mübarizə və birgə fəaliyyətin təşkili" mövzusunda ikigünlük seminar-müşavirə keçirilib.

Din xadimləri, gənclər və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan Kürdəmir RİH başçısının birinci müavini Tacəddin Novruzov mövzunun əhəmiyyətindən danışıb. Natiq bu cür tədbirlərin əhəmiyyətini yüksək qiymətləndirib və rayondakı dini durum, eləcə də dini icmaların fəaliyyəti barədə ətraflı məlumat verib.

Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı çıxışında ölkəmizdə mövcud olan dövlət-din münasibətlərindən, o cümlədən dini radikalizm və dini ekstremizmin törətdiyi fəsadlardan bəhs edib. S.Salahlı vurğulayıb ki, müasir dövrdə dünyanın bir çox dövlətləri dini ekstremizm və terrordan ciddi əziyyət çəkir. DQİDK sədrinin birinci müavini bildirib ki, hazırda dünyada, xüsusilə müsəlman ölkələrində sabitliyin pozulmasında din amili xüsusi rol oynayır və beynəlxalq güclər bu vəziyyətdən məharətlə istifadə edirlər.

Ölkəmizdə mövcud olan multikultural və tolerantlıq mühitindən də bəhs edən S. Salahlı vurğulayıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün dini konfessiyaların nümayəndələri hərtərəfli diqqət və qayğı ilə əhatə olunublar. Məhz bütün bunların nəticəsidir ki, xalqımız bu ilin aprelin 11-də ölkəmizdə keçirilən prezident seçkilərində cənab İlham Əliyevə növbəti dəfə etimad göstərdi.

Dövlət başçısının rəhbərliyi ilə ölkəmizdə mövcud olan ictimai-siyasi və dini sabitlikdən danışan S.Salahlı respublikamızda aparılan dini radikalizmlə mübarizə tədbirlərinə də toxunub. Dövlət Komitəsi sədrinin birinci müavini bu istiqamətdə din xadimlərinin, dindarların və gənclərin üzərinə böyük məsuliyyət düşdüyünü vurğulayıb.

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) səlahiyyətli nümayəndəsi, Kürdəmir şəhər "İmam Rza" məscidi dini icmasının sədri Füzuli Cəfərov isə çıxışında dinə və dindarlara göstərdiyi qayğıya görə ölkə rəhbərliyinə təşəkkürünü bildirib.

Seminar-müşavirənin birinci günü iştirakçıları maraqlandıran sualların cavablandırılması ilə yekunlaşıb.

* * *

**Seminar-müşavirə öz işini növbəti gün davam etdirib.**

Yuxarı sinif şagirdləri, müəllimlər və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi seminar-treninqin ikinci günündə öncə DQİDK-nın sifarişi ilə çəkilmiş dini radikalizm və terrorizmin fəsadlarından bəhs edən "Üfüqdəki gələcək" sənədli filmi nümayiş etdirilib.

Daha sonra çıxış edən Kürdəmir RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini – dini qurumlarla işin təşkilatçısı Elxan Qafarov bildirib ki, tədbirin keçirilməsində məqsəd gəncləri dini radikalizm və onun fəsadları barədə məlumatlandırmaqdır. Gənclərin dini radikal qruplara qoşulma səbəbləri haqqında danışan E.Qafarov dini radikalizmə qarşı mübarizə metodları barədə məlumat verib.

Daha sonra çıxış edən DQİDK sədrinin birinci müavini Səyyad Salahlı gənc nəslin tərbiyə olunmasında milli-mənəvi dəyərlərin xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb. Milli-mənəvi dəyərlərin vətənpərvərlik hisslərinin formalaşmasında da mühüm rolu olduğunu deyən sədrin birinci müavini müstəqilliyimizin bərpasından sonra həyata keçirilən uzaqgörən siyasətin bu ümdə dəyərlərimizin qorunub saxlanılması və gələcək nəsillərə çatdırılmasına böyük zəmin yaratdığını qeyd edib. Gənclərə öz tövsiyələrini verən Səyyad Salahlı dini radikal qrupların zərərli təsirindən qorunmaq üçün onlara elm və təhsilə maraq göstərmələrini, asudə vaxtlarını səmərəli keçirmələrini məsləhət görüb.

Sonra DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin tərkibində Dini təhsil sektorunun müdiri Anar Əlizadə çıxış edib. O, terrorizmin getdikcə daha da gəncləşdiyini, gənclərin terror təşkilatlarına daha çox qoşulduğunu bildirib. Dini radikal qrupların gəncləri özlərinə cəlb etdiklərini qeyd edən sektor müdiri dini radikal qrupların təbliğat metodlarından danışıb. Natiq qeyd edib ki, gənclərin dini radikalizm və ekstremizmdən qorunması üçün təhsilin və dinin əsl mahiyyətinin onlara düzgün çatdırılması vacibdir.

DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin müdiri Əzim Rəfiyev Aprel döyüşləri şəhidlərini gənclərə nümunə göstərib, onların mübarizə yolunun örnək olduğunu bildirib.

QMİ-nin səlahiyyətli nümayəndəsi, Kürdəmir şəhər "İmam Rza" məscidi dini icmasının sədri Füzuli Cəfərov bəzi dairələrdə İslama qarşı mənfi münasibətin olduğunu, onların müsəlman ölkələrində dini zəmində qarşıdurmalar yaratmağa cəhd etdiklərini bildirib. Qeyd edib ki, buna görə də gəncləri dini radikalizm, ekstremizm və digər zərərli vərdişlərdən qorumaq, onlara düzgün savad, elm öyrətmək lazımdır.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

**ŞAMAXIDA**

Bu qəbildən olan növbəti ikigünlük seminar-müşavirə aprelin 23-24-də Şamaxıda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Şamaxı Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilib.

Hüquq mühafizə orqanları, din xadimləri, dini icma sədrləri və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi seminar-müşavirəni giriş sözü ilə açan Şamaxı RİH başçısının birinci müavini Qasım Qasımov tədbirin əhəmiyyətini yüksək qiymətləndirib. RİH başçısının birinci müavini, eyni zamanda rayondakı dini durum və dini icmaların fəaliyyəti barədə ətraflı məlumat verib.



Daha sonra çıxış edən DQİDK sədrinin birinci müavini Səyyad Salahlı bildirib ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dövlətin din siyasəti hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bunun nəticəsidir ki, ölkəmizdə tolerant və multikultural mühit formalaşıb və bu, bütün dünyada müasir və mütərəqqi cəmiyyət modeli kimi qəbul edilir. Natiq dövlət başçısının rəhbərliyi ilə ölkəmizdə milli-mənəvi dəyərlərimizin qorunmasına və tolerantlıq ənənələrinin möhkəmləndirilməsinə böyük önəm verildiyini vurğulayıb.

S. Salahlı qeyd edib ki, respublikamızda qəbul edilən qanunlar və normativ hüquqi aktlar dini etiqad azadlığını təmin edir, eyni zamanda dövlətlə dini qurumlar arasındakı münasibətləri qanun çərçivəsində tənzimləmək üçün hüquqi əsas yaradır.

Dini radikalizmin fəsadlarından da danışan S.Salahlı Azərbaycanda dini radikalizmə qarşı ideoloji, iqtisadi və hüquqi mübarizə aparıldığını diqqətə çatdırıb. Dövlət Komitəsi sədrinin birinci müavini gənclərin, ziyalıların və din xadimlərinin, bütövlükdə cəmiyyətin dini ekstemizmlə mübarizədə fəal olmalarının vacib olduğunu vurğulayıb.

QMİ-nin Şamaxı və Qobustan rayonları üzrə səlahiyyətli nümayəndəsi Mərəhmət Mustafayev dinə və dindarlara göstərdiyi qayğıya görə dövlət başçısı cənab İlham Əliyevə təşəkkürünü bildirib.

Seminar-müşavirənin birinci günü iştirakçıları maraqlandıran sualların cavablandırılması ilə yekunlaşıb.

* * *

**Aprelin 24-də seminar-müşavirə öz işini davam etdirib.**

Gənclər, yuxarı sinif şagirdləri və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi seminar-müşavirənin ikinci günündə öncə DQİDK-nın sifarişi ilə çəkilmiş dini radikalizm və terrorizmin fəsadlarından bəhs edən "Üfüqdəki gələcək" sənədli filmi nümayiş etdirilib.

Daha sonra çıxış edən Rayon İcra Hakimiyyəti başçısının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Gülnisə Ələkbərova bildirib ki, Ümummilli Liderimiz Heydər Əliyevin əsasını qoyduğu və bu gün dövlət başçısı İlham Əliyevin davam etdiriyi dövlət-din münasibətləri sağlam prinsiplər üzərində qurulub. Vurğulayıb ki, müstəqil Azərbaycanda ənənə halını almış tolerant və multikultural mühit bütün dünyada təbliğ və təşviq olunmaqdadır. Qeyd edib ki, gənclərin dini radikalizm və onun fəsadları barədə məlumatlandırılması istiqamətində bu cür seminar-müşavirələrin əhəmiyyəti yüksəkdir.

DQİDK sədrinin birinci müavini Səyyad Salahlı çıxışında dinimizin fundamental dəyərlərinin geniş təbliğ edilməsinin vacibliyini qeyd edib. Dövlət Komitəsi sədrinin birinci müavini maarifləndirmə və gənclərin dini radikalizmlə mübarizədə fəaliyyətlərinin gücləndirilməsi məqsədilə keçirilən bu cür tədbirlərin gələcəkdə də davam etdiriləcəyini bildirib.

S.Salahlı, eyni zamanda dini radikalizmə qarşı mübarizədə maarifçiliyin əsas silah olduğunu vurğulayıb. O, dini maarifləndirmənin gücləndirilməsi, dinimizin düzgün şəkildə insanlara, xüsusilə gənclərə aşılanmasının radikalizmin qarşısının alınmasında ən effektiv vasitə olduğunu vurğulayıb.

Sonra çıxış edən DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin tərkibində Dini təhsil sektorunun müdiri Anar Əlizadə deyib ki, bu görüşlər gənclər arasında milli-mənəvi dəyərlərimizin təbliğinə, dinimizin əsaslarının möhkəmləndirilməsinə və dindarlarla əlaqələrin intensivləşdirilməsinə yönəlib. Azərbaycanda dini müstəvidə sabitlik və əmin-amanlığın bundan sonra da dövlətimiz üçün siyasi baxımdan prioritet məsələ olduğunu diqqətə çatdıran A.Əlizadə cəmiyyətimizin, xüsusilə gənclərin radikal təsirlərdən qorunmasında hər kəsin üzərinə böyük məsuliyyət düşdüyünü vurğulayıb.

Daha sonra çıxış edən natiqlər gənclərin ekstremizm və digər zərərli vərdişlərdən qorunması üçün onlar arasında dini maaairfləndirmə işinin aparılmasının önəmini diqqətə çatdırıblar.

Seminar-müşavirə iştirakçıları maraqlandıran sualların cavablandırılması ilə yekunlaşıb.

# "MİLLİ TƏHLÜKƏSİZLİYƏ ƏSAS TƏHDİDLƏRDƏN BİRİ - DİNİ RADİKALİZM" MÖVZUSUNDA SEMİNAR-MÜŞAVİRƏ BAŞ TUTUB

## BEYLƏQANDA

Aprelin 20-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Beyləqan rayonunda "Milli təhlükəsizliyə əsas təhdidlərdən biri – dini radikalizm" mövzusunda seminar-müşavirə keçirilib. Seminar-müşavirədə Baş Prokurorluq, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəhbər şəxsləri, eyni zamanda, bu qurumların İmişli, Saatlı, Sabirabad, Füzuli və Beyləqan rayonlarındakı yerli strukturlarının məsul nümayəndələri, prokurorlar, ziyalılar, dindarlar, ərazidəki N saylı hərbi hissənin zabit və əsgərləri iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül-çiçək dəstələri düzərək, xatirəsinə ehtiramlarını bildiriblər.

Beyləqan rayon Mədəniyyət Mərkəzində keçirilən tədbirdə Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra DQİDK-nın sifarişi ilə çəkilmiş "Şəhadət" sənədli filmi nümayiş olunub.

Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Abdullayev çıxış edərək, tədbirin əhəmiyyətindən danışıb.





Bildirib ki, seminar-müşavirənin keçirilməsində əsas məqsəd Azərbaycanda dini ekstremizmə qarşı mübarizə sahəsində görülən işlərin və qarşıda duran vəzifələrin müzakirə olunmasıdır.

DQİDK sədrinin müavini Səyavuş Heydərov "Şəhadət" filminin süjet xətti, Vətən uğrunda canlarından keçmiş şəhidlərimiz və radikal qruplaşmaların, qeyri-qanuni hərbi birləşmələrin tərkibində vuruşaraq öldürülən insanlar haqqında danışıb. Bildirib ki, "Şəhadət" sənədli filmi Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin xatirəsinə həsr olunub. Ekranında Vətən uğrunda şəhadətə qovuşmuş qəhrəmanlarla yanaşı, dini fanatizmin və radikalizmin təsirinə məruz qalmış, bir sıra xarici ölkələrdəki ekstremist-terrorçu silahlı birləşmələrin tərkibində döyüşmüş şəxslərdən bəhs edilir. Filmdə Vətənin müqəddəsliyi, onun müdafiəsinin vacibliyi, şəhidlik zirvəsinin ucalığı təbliğ olunur, digər tərəfdən isə radikalizmin törətdiyi fəsadlar tamaşaçılara təqdim edilir.

Dini radikalizmin mahiyyəti, yaranma səbəbləri, fəsadlarından bəhs edən S.Heydərov qeyd edib ki, radikalizmin və ekstremizmin təsirinə düşməyin başlıca səbəblərindən biri vətənpərvərlik hissinin zəif olmasıdır. Ona görə gənclərdə vətənpərvərlik hissinin gücləndirilməsi, onları yad təsirlərdən qorumaq üçün hər birimiz çalışmalıyıq.

Komitə sədrinin müavini çıxışında dünyada dini zəmində baş verən münaqişələrdən, Yaxın Şərqdə dini radikalizm və ekstremizmin acı nəticələrindən, radikal cərəyanların törətdiyi fəsadlardan söz açıb. Bildirib ki, dünya güclərinin hədəfi İslam ölkələridir. Azərbaycan da bu münaqişələrdən sığortalanmayıb. Çünki Azərbaycan dünya güclərinin maraqlarının toqquşduğu coğrafi məkanda yerləşir. Bu gün Azərbaycanda da məzhəb ayrı-seçkiliyi salmaq istəyirlər. Lakin buna baxmayaraq, ölkəmizdə dini durum tam sabitdir.

Azərbaycanda mövcud olan ictimai-siyasi sabitlikdən, əmin-amanlıqdan, dövlət-din münasibətlərinin sağlam şəkildə qurulmasından danışan S.Heydərov ölkəmizdəki multikultural və tolerant dəyərlərin dünya üçün örnək olduğunu vurğulayıb. Qeyd edib ki, ölkəmizdə dini etiqad azadlığı tam təmin olunub. Azərbaycanda olan dini etiqad azadlığı, dövlət-din münasibətləri dünyaya bir nümunədir.

Prezident İlham Əliyevin Sərəncamı ilə təsis edilmiş Azərbaycan İlahiyyat İnstitutunun əhəmiyyətindən bəhs edən DQİDK-nın sədr müavini ali məktəbdə dövlətçiliyə, milli-mənəvi dəyərlərimizə bağlı, vətənpərvər, yüksək ixtisaslı kadrların hazırlanacağını bildirib.

Səyavuş Heydərov Prezident seçkilərindən sonra dövlət başçısının Hacı Cavad məscidinin yeni binasının açılışında iştirak etməsini milli-mənəvi, dini dəyərlərimizə verilən yüksək diqqətin daha bir nümunəsi adlandırıb.

Tədbirdə, həmçinin Baş Prokurorluğun nümayəndəsi Alim Cəbrayılov, Daxili İşlər Nazirliyinin məsul əməkdaşı Oqtay Tağıyev mövzu ilə bağlı çıxış edib, təmsil etdikləri qurumların dini radikalizmlə mübarizə istiqamətində həyata keçirdikləri profilaktik və inzibati tədbirlərdən söz açıblar.

Sonda çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin bölgə üzrə qazısı Vadar Əliquliyev bildirib ki, ölkəmizdə dindarlara dövlət səviyyəsində daim diqqət və qayğı göstərilir, yeni məscidlər tikilir və ya təmir edilir.

Seminar-müşavirə mövzu ətrafında fikir mübadiləsi ilə davam edib. Sonda iştirakçılara DQİDK tərəfindən çap olunan nəşrlər paylanılıb.

## QAZAXDA

DQİDK-nın təşkilatçılığı ilə "Milli təhlükəsizliyə əsas təhdidlərdən biri - dini radikalizm" mövzusunda növbəti seminar-müşavirə aprelin 26-da Qazax rayonunda keçirilib.

Seminar-müşavirədə DQİDK-nın sədr müavini Səyavuş Heydərov, Qazax Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Məmməd Alıyev, Baş Prokurorluq, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidmətinin vəzifəli şəxsləri, eyni zamanda bu qurumların Qazax, Ağstafa, Tovuz, Şəmkir və Gədəbəy rayonlarındakı yerli strukturlarının məsul nümayəndələri, prokurorlar, ziyalılar, dindarlar, ərazidəki N saylı hərbi hissənin zabit və əsgərləri iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül-çiçək dəstələri düzərək, xatirəsini ehtiramla anıblar.

Qazax rayon Gənclər Mərkəzində keçirilən tədbirdə əvvəlcə DQİDK-nın sifarişi ilə çəkilmiş, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin xatirəsinə həsr olunmuş "Şəhadət" sənədli filmi nümayiş etdirilib. Daha sonra Ulu Öndər Heydər Əliyev və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbiri açan Qazax Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Məmməd Alıyev mövzunun əhəmiyyətindən danışıb və rayonda keçirilən bu cür tədbirlərin önəminə toxunub. O, bu istiqamətdə son illər Qazaxda görülən məqsədyönlü işlər barədə danışaraq dövlət-din münasibətlərinin qanunvericiliyin tələblərinə uyğun olaraq düzgün tənzimlənməsi məqsədilə əhalinin müxtəlif təbəqələri, o cümlədən gənclər, tələbələr və şagirdlər arasında dini maarifləndirmə işlərinə diqqətin daha da artırıldığını bildirib.

Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərov bildirib ki, ölkəmiz dünyəvilik prinsiplərinə əsaslanmaqla multikultural dəyərləri yaşatmaqda və inkişaf etdirməkdədir. Azərbaycan bu sahədə tarixi təcrübəyə malikdir və ölkəmizdə müxtəlif etnik, dini qrupların birgəyaşayış mühiti sağlam təməllər üzərində qurulub. O, Azərbaycan dövlətinin bu mövzuya hər zaman həssas yanaşdığını qeyd edib. Vurğulayıb ki, dövlətimiz multikulturalizmi və dini tolerantlığı dövlət siyasətinə çevirməklə bu şəraiti ölkəmizdə nümunəvi bir şəkildə formalaşdırmağı bacarıb.

Milli təhlükəsizliyimizə əsas təhdidlərdən biri olan dini radikalizmin fəsadlarından da bəhs edən S.Heydərov bildirib ki, bəzi qrupların din adı altında xüsusən gənclərimizi çirkin məqsədlərində alətə çevirməsinə və Azərbaycan gənclərinin bu məqsədlərə qurban getməsinə heç bir vəchlə imkan vermək olmaz. Onun sözlərinə görə, İslam dininin siyasiləşdirilməsi cəhdləri onun terror və müharibədə qorxulu silaha çevrilməsinə səbəb ola bilər. İslamın sağlam təməllərinin əsas götürülməsinin önəminə toxunan sədr müavini bunun sayəsində bir çox problemli məsələlərin asanlıqla öz həllini tapa biləcəyini deyib. Diqqətə çatdırıb ki, bunun üçün, ilk növbədə, İslam dini siyasətdən uzaqlaşdırılaraq sırf elmi-mədəni müstəvidə öz inkişafını tapmalıdır. Bu gün İslam mədəniyyətinin, İslamın elmi gücünün ön plana çıxarılması, problemlərin silah gücü ilə deyil, qarşılıqlı anlaşma və tam elmi əsaslarla həll edilməsi dünyadakı bir çox münaqişə ocaqlarını söndürməyə qadirdir. S.Heydərov bu baxımdan ötən ilin ölkəmizdə Prezident İlham Əliyev tərəfindən "İslam Həmrəyliyi İli" elan olunmasının zamanın çağırışlarına cavab verən addım olduğunu qeyd edib.

Tədbirdə, həmçinin Baş Prokurorluğun idarə rəisinin müavini Rauf Məmmədov, Daxili İşlər Nazirliyinin məsul əməkdaşı Oqtay Tağıyev mövzu ilə bağlı çıxış ediblər. Natiqlər təmsil etdikləri qurumların dini radikalizmlə mübarizə istiqamətində həyata keçirdikləri profilaktik və inzibati tədbirlərdən söz açıblar.

Sonda çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin bölgə üzrə qazısı İlham Süleymanov bildirib ki, ölkəmizdə dindarlara dövlət səviyyəsində diqqət və qayğı göstərilir, yeni məscidlər tikilir və ya təmir edilir.

Seminar-müşavirə mövzu ətrafında fikir mübadiləsi ilə davam edib.

# "DİNİ MAARİFLƏNDİRMƏ İŞİNİN TƏŞKİLİ: GERÇƏKLİKLƏR VƏ PERSPEKTİVLƏR" MÖVZUSUNDA İKİGÜNLÜK SEMİNAR-TRENİNQ KEÇİRİLİB

## UCARDA

Aprelin 19-20-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Ucar Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Dini maarifləndirmə işinin təşkili: gerçəkliklər və perspektivlər" mövzusunda ikigünlük seminar-treninq keçirilib.

Seminar-treninqin birinci günündə Ucar və Göyçay rayonlarında fəaliyyət göstərən məscidlərin imamları, imam müavinləri, dini icma sədrləri və dindarlar iştirak ediblər.

DQİDK-nın sədr müavini Gündüz İsmayılov bildirib ki,



respublikamızda həyata keçirilən din siyasətinin əsas mahiyyəti dini etiqad, vicdan azadlığının təmin edilməsidir. Bununla yanaşı, konfessiyalararası münasibətləri, dinlərarası dialoqu, tolerantlıq mühitini qoruyub saxlamaq əsas prioritet istiqamətlərdən biridir. Dövlət Komitəsi sədrinin müavininin sözlərinə görə, Ümummilli Liderimiz Heydər Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində bütün sahələrdə olduğu kimi, dövlət-din münasibətlərində də tam hüquqi qanunvericilik bazası formalaşdırılıb. Azərbaycan dünyəvi dövlət olsa da, dövlətimiz bütün dinlərə eyni münasibət sərgiləyir, tolerant və multikultural dəyərləri təşviq və təbliğ edir.

Dövlətin dinə və dindarlara qayğısından da bəhs edən G. İsmayılov deyib ki, ölkəmizdə mövcud dini konfessiyaların dəstəklənməsini, mənəvi dəyərlərin qorunmasını və inkişafını, habelə bu sahəyə dövlət dəstəyinin gücləndirilməsini təmin etmək məqsədi ilə möhtərəm Prezidentimiz cənab İlham Əliyevin Sərəncamı ilə Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması bu qayğının bariz numunəsidir.

Daha sonra çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Göyçay rayonu üzrə səlahiyyətli nümayəndələri Rəsul Kazımov və Cavid Səfərov Azərbaycanda mövcud olan tolerantlıq mühitini yüksək qiymətləndiriblər.

* * *

Rayonun ümumtəhsil məktəblərinin direktorları, təlim-tərbiyə işləri üzrə direktor müavinləri, məktəb psixoloqları, "Həyat bilgisi" fənnini tədris edən müəllimlər və aktiv gənclərin iştirak etdiyi seminar-treninqin ikinci gününü giriş sözü ilə açan Ucar RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Məhəmməd Bayramov mövzunun əhəmiyyətindən danışıb. O, eyni zamanda rayonda keçirilən dini maarifləndirmə tədbirlərinin önəminə də toxunub.

Daha sonra çıxış edən DQİDK-nın sədr müavini Gündüz İsmayılov bildirib ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən respublikamızda dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, ölkəmizdə tarixən mövcud olan tolerantlıq ənənələrinin qorunması və təşviqi, eyni zamanda dini radikalizm və dini ekstremizmlə ideoloji müstəvidə effektiv mübarizənin aparılması məqsədilə silsilə tədbirlər həyata keçirilir. G.İsmayılov vurğulayıb ki, müasir cəmiyyətdə dini dəyərlərin düzgün təbliğində, eləcə də dini radikalizmə qarşı mübarizədə maarifçilik əsas silahdır. Natiq yad dini-ideoloji təsirlərin qarşısının alınması istiqamətində ənənəvi İslam dəyərlərinin təbliğinin mühüm rol oynadığını da qeyd edib. Onun sözlərinə görə, ənənəvi İslam dinin siyasiləşməsinə, bölücülüyə haqq qazandırmır və dinin siyasiləşdirilməsi yolverilməzdir.

Dövlət Komitəsinin Ucar bölgəsi üzrə şöbəsinin müdiri Əzim Rəfiyev qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda ictimai-siyasi və dini durum sabitdir və respublikamız dünyaya multikulturalizm ixrac edən ölkə kimi tanınmaqdadır.

Tədbirdə çıxış edən digər natiqlər Azərbaycanda dövlət-din münasibətlərinin əsasının Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulduğunu, bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirildiyini vurğulayıblar.

İki gün davam edən seminar-treninq iştirakçıları maraqlandıran sualların cavablandırılması və müzakirələrlə yekunlaşıb.

## AĞSTAFADA

Bu mövzuda növbəti ikigünlük seminar-treninq aprelin 25-26-da Ağstafada baş tutub.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Ağstafa Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən seminar-treninqdə DQİDK-nın sədr müavini Gündüz İsmayılov, Ağstafa RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini – dini qurumlarla işin təşkilatçısı Əziz Məsmaliyev, DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov, DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsinin müdiri vəzifəsini icra edən Rasim Tağıyev, məktəb psixoloqları və "Həyat Bilgisi" fənnini tədris edən müəllimlər iştirak ediblər.



Seminar-treninqin birinci gününü giriş sözü ilə açan RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Əziz Məsmaliyev mövzunun əhəmiyyətindən danışıb. Natiq, həmçinin rayonda mövcud dini vəziyyət barədə də tədbir iştirakçılarına geniş məlumat verib.

Daha sonra çıxış edən DQİDK-nın sədr müavini G. İsmayılov bildirib ki, bu gün ölkəmizdə dövlət-din münasibətlərinin daha yüksək səviyyədə tənzimlənməsi, eləcə də cəmiyyətimizdə radikalizm meyillərinin qarşısının alınması istiqamətində dövlətimiz tərəfindən geniş tədbirlər həyata keçirilir. Sədr müavini qeyd edib ki, bu cür seminar-treninqlərin təşkilində əsas məqsəd dini maarifləndirmə yolu ilə radikalizm, məzhəbçilik, dini ayrı-seçkilik kimi amillərə qarşı mübarizə, eyni zamanda ictimaiyyətin düzgün istiqamətləndirilməsidir.

Ölkəmizdə mövcud olan tolerantlıq mühitindən də danışan DQİDK-nın sədr müavininin sözlərinə görə, Azərbaycanda bütün xalqların nümayəndələri, o cümlədən müxtəlif dinlərin təmsilçiləri arasında bir-birinə tolerant yanaşma mövcuddur. Vurğulayıb ki, ölkə əhalisi dini radikalizm, ekstremizm və onların fəsadları, eləcə də milli-mənəvi dəyərlərimiz haqqında kifayət qədər məlumatlıdırlar. Amma zaman keçdikcə bu istiqamətlərdə işlərin daha da gücləndirilməsinə ehtiyac var, çünki din həssas sahədir və dövlətin, eləcə də cəmiyyətin milli, ictimai və ideoloji təhlükəsizliyi baxımından xüsusi əhəmiyyət kəsb edir.

Dini radikalizm və ekstremizmin fəsadlarından da danışan G. İsmayılov deyib ki, dini radikalizmlə mübarizədə ən effektiv metod gənclərin təhsilinin artırılmasıdır.

Daha sonra çıxış edən DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov cəmiyyətin bütün təbəqələrini əhatə etməklə mütəmadi olaraq keçirilən konfrans və treninqlərdən ətraflı danışaraq dini maarifləndirmə ilə bağlı tədbirlərin davam etdirilməsinin zəruriliyini vurğulayıb.

Tədbirin sonunda iştirakçıları maraqlandıran mövzular ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Ağstafada "Dini maarifləndirmə işinin təşkili: gerçəkliklər və perspektivlər" mövzusunda keçirilən ikigünlük seminar-treninq aprelin 26-da öz işini davam etdirib.

Tədbirdə DQİDK-nın sədr müavini Gündüz İsmayılov, Ağstafa RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini – dini qurumlarla işin təşkilatçısı Əziz Məsmaliyev, DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov, gənclər, təhsil işçiləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Ağstafa RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Əziz Məsmaliyev dövlət-din münasibətləri, eləcə də milli-mənəvi dəyərlərimizin təbliği istiqamətində görülən işlər barədə ətraflı məlumat verib. Bildirib ki, ölkəmizdə milli-mənəvi dəyərlərimizin qorunmasına və tolerantlıq ənənələrinin möhkəmləndirilməsinə böyük önəm verilir.

DQİDK-nın sədr müavini G. İsmayılov çıxışında qeyd edib ki, dövlət tərəfindən mənəvi dəyərlərimizin təbliğinə, dinə, o cümlədən İslam və qeyri-islam təmayüllü dini icmalara diqqət və qayğı göstərilir. Vurğulayıb ki, Prezident İlham Əliyevin Sərəncamı ilə Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması da respublikamızda mənəvi dəyərlərin qorunmasına və inkişafına, bu sahədə sosial layihələrin reallaşdırılmasına, habelə vətəndaşların dini etiqad azadlığının həyata keçirilməsinə dəstək olacaq.

G. İsmayılov sonda gənclərə milli-mənəvi dəyərlərimizin təbliği və radikalizmə qarşı ideoloji mübarizə istiqamətində fəaliyyət göstərmələrini, ümummilli maraqlardan çıxış etmələrini tövsiyə edib.

Daha sonra çıxış edən DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov bildirib ki, gənclərin dini ekstremizm və digər zərərli vərdişlərdən qorunması üçün onlar arasında dini maaairfləndirmə işinin aparılmasının önəmini diqqətə çatdırıb.

İkigünlük seminar-treninq iştirakçıları maraqlandıran sualların cavablandırılması ilə yekunlaşıb.

## GÖYGÖLDƏ

Bu qəbildən olan növbəti iki günlük seminar-müşavirə aprelin 26-da Göygöldə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Göygöl Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə öz işinə başlayıb.

Tədbirin birinci günü Göygöl RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini – dini qurumlarla işin təşkilatçısı Babək Rəsulov, DQİDK-nın sədr müavini Gündüz İsmayılov, DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov və Göygöl RİH-in nümayəndəsi Vüqar Hüseynov çıxış ediblər.

Natiqlər bildiriblər ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda ictimai-siyasi və dini durum sabitdir. Bütün dinlərin və xalqların nümayəndələri multikultural və tolerantlıq dəyərlərinə sadiq olan ölkəmizdə sülh və əmin-amanlıq şəraitində yaşayırlar.

Qeyd olunub ki, məzhəb müxtəlifliyi şəraitində multikultural cəmiyyətlərdə, xüsusilə İslam dininə mənsub toplumlarda ənənəvi İslamın zəifləməsi fonunda xarici təsirlərin güclənməsi prosesi gedir. Dini radikalizmin güclənməsi dinin siyasiləşdirilməsinə, tolerantlığın zəifləməsi ilə məzhəbçiliyin güclənməsinə, cəmiyyətdə qütbləşmənin və sosial təbəqələşmənin yaranmasına aparıb çıxarır.

Həmçinin tədbirdə gənclərin müəyyən bilgilərə yiyələnmələrinin, həmçinin onların radikalizmə qarşı mübarizədə fəal olmalarının vacibliyi diqqətə çatdırılıb.

Seminar-treninqin birinci günü dini radikalizmə qarşı birgə mübarizənin vacibliyi və milli-mənəvi dəyərlərimizin qorunması, nümunəvi Azərbaycan gəncinin əsas xüsusiyyətləri barədə fikir mübadiləsinin aparılması ilə yekunlaşıb.

# QISA-QISA

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini davam etdirir. Bu istiqamətdə keçirilən tədbirlərdə ölkəmizdəki multikultural və tolerant mühit, həmçinin dini radikalizmə qarşı mübarizənin mahiyyəti haqqında çıxışlar edilir, dövlət-din münasibətlərinin hüquqi bazası barədə məlumat verilir, eləcə də dini icmaların maarifləndirmə sahəsində fəallığının daha da artırılması məqsədilə müzakirələr aparılır. Tədbirlərdə Dövlət Komitəsinin əməkdaşları ilə yanaşı, respublikanın müxtəlif şəhər və rayonlarının icra hakimiyyəti və hüquq mühafizə orqanı rəhbərləri, gənclər, dini icma sədrləri, din xadimləri, dindarlar, ilahiyyatçılar, ziyalılar və ictimaiyyət fəalları iştirak edirlər. Keçirilən konfrans, seminar-müşavirə və seminar-treninqlər DQİDK-nın təşkilatçılığı ilə, eyni zamanda Dövlət Komitəsi ilə müvafiq dövlət qurumları arasında imzalanan Tədbirlər Planına uyğun olaraq reallaşdırılır. Cari ay ərzində bu qəbildən olan tədbirlər:*



**3 aprel** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Rəhim Tağıyev adına Masallı rayon Tarix-Diyarşünaslıq muzeyinin birgə təşkilatçılığı ilə "Aprel şəhidləri gənclər üçün qəhrəmanlıq nümunəsidir" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və Saatlı Rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "Vətənpərvər Azərbaycan gəncliyi" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, Qafqaz Müsəlmanları İdarəsi (QMİ) və Lənkəran Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Azərbaycanda dövlət-din münasibətləri: dünən və bu gün" mövzusunda;

**4 aprel** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin və Quba Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə rayonun Alpan kənd klubunda "Vətəni sevmək imandandır" mövzusunda;

**6 aprel** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin və Saatlı rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "Azərbaycan Xalq Cümhuriyyəti və mənəvi dəyərlərimiz" mövzusunda;

**9 aprel** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Beyləqan şəhər 2 saylı tam orta məktəbində "Aprel şəhidləri gənclərin qəhrəmanlıq ruhunda tərbiyə olunmasının əvəzsiz zirvəsidir" mövzusunda; Göyçay Rayon İcra Hakimiyyəti və DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin birgə təşkilatçılığı ilə Elton Əkbərov adına şəhər 2 saylı tam orta məktəbdə "Aprel şəhidlərinin yolu gənclərə nümunədir" mövzusunda;

**10 aprel** – DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Sumqayıt şəhəri 33 nömrəli tam orta məktəbində "Aprel döyüşləri – tariximizin yeni qəhrəmanlıq səhifəsi" mövzusunda;

**12 aprel** – Mingəçevir Şəhər İcra Hakimiyyəti və DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin birgə təşkilatçılığı ilə Mingəçevir şəhər İstək Liseyində "Aprel döyüşləri - qəhrəmanlıq salnaməsi" mövzusunda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsinin və Şəki şəhər Gənclər və İdman idarəsinin birgə təşkilatçılığı ilə Şəki şəhər 5 saylı tam orta məktəbində "Aprel şəhidləri – nümunəvi qəhrəmanlıq" mövzusunda;

**13 aprel** – DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Abşeron rayonu Mehdiabad qəsəbəsi 4 saylı tam orta məktəbində "Aprel şəhidləri qürur mənbəyimizdir" mövzusunda; Zərdab Rayon İcra Hakimiyyəti və DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin birgə təşkilatçılığı ilə Zərdab rayonu Dəkkoba kəndi tam orta məktəbdə "Aprel şəhidləri - Azərbaycan gəncliyinin qüruru" mövzusunda; Qazax Rayon İcra Hakimiyyəti və DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsinin birgə təşkilatçılığı ilə "Aprel zəfəri" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Balakən rayonu Şanbul kənd tam orta məktəbdə "Aprel döyüşləri – vətənpərvərlik nümunəsi" mövzusunda;

**16 aprel** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, Astara Rayon Təhsil Şöbəsi və Astara Rayon Polis Şöbəsinin birgə təşkilatçılığı ilə M.Ə.Sabir adına şəhər 1 saylı tam orta məktəbdə "Sağlam həyat naminə narkomaniyaya "Yox" deyək"mövzusunda;

**17 aprel** – DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Sumqayıt şəhəri 34 saylı tam orta məktəbdə "Çağdaş qəhrəmanlıq salnaməsi - Aprel döyüşləri" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Xaçmaz Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Xaçmaz rayonu Xudatkənd kəndində "Vətən sevgisi imandandır" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Zaqatala Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Əliabad qəsəbə tam orta məktəbində "Aprel zəfəri şəhidlərimiz hər zaman bizimlədir" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Göygöl Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Vətənpərvər gəncliyin dini radikalizmə qarşı mübarizəsi" mövzusunda;

**18 aprel** – DQİDK-nın İmşli bölgəsi üzrə şöbəsi, Saatlı Rayon İcra Hakimiyəti və Rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "Gənclər arasında zərərli vərdişlərə və narkomaniyaya qarşı mübarizə" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Quba Rayon İcra Hakimiyyəti və Quba Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə rayonun Bağbanlı kəndində "Vətəni sevmək imandandır" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Siyəzən Rayon İcra Hakimiyyəti və Siyəzən Rayon Polis Şöbəsinin birgə təşkilatçılığı ilə Siyəzən rayonunun Məşrif kəndində "Dini radikalizmə qarşı mübarizənin başlıca yolları" mövzusunda;

**19 aprel** – DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Sumqayıt şəhəri 35 saylı tam orta məktəbində "Zəfərin təntənəsi: aprel döyüşləri" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Gəncə Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Vətənpərvər gəncliyin dini radikalizmə qarşı mübarizəsi" mövzusunda; Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Lerik rayonunun Kəlvəz kənd tam orta məktəbində "Milli-mənəvi dəyərlərimizin təbliği dini radikalizmə qarşı mübarizə vasitəsi kimi" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Astara Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə rayonun Hamoşam kənd tam orta məktəbində "Zərərli vərdişlər, erkən nikah və onların fəsadları" mövzusunda; Qazax Rayon İcra Hakimiyyəti və DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Aprel zəfəri" mövzusunda;



**20 aprel** – DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi və Qobustan Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Qobustan rayonu Təklə kənd tam orta məktəbində "Aprel şəhidləri tariximizin şanlı səhifəsidir" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Lənkəran Şəhər Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə rayonun Darquba kənd tam orta məktəbində "Aprel döyüşləri tariximizin qəhrəmanlıq səhifəsidir" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi rayonun hüquq-mühafizə orqanlarının şəxsi heyəti ilə birlikdə dini radikalizmə qarşı mübarizə ilə bağlı Ağcabədi Rayon Polis Şöbəsində;

**23 aprel** – DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Xırdalan şəhər 4 saylı tam orta məktəbində "Aprel döyüşləri - yaxın tariximizin şanlı səhifəsi" mövzusunda;

**24 aprel** – DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Sumqayıt şəhər 36 saylı tam orta məktəbdə "Ölümsüz qəhrəmanlar: Aprel şəhidləri" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Zaqatala Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə rayonun Mazıx kənd tam orta məktəbində "Milli-mənəvi dəyərlərimizin gənclərin tərbiyəsində rolu" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Balakən Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə rayonun humanitar və texniki təmayüllü liseyində "Aprel döyüşləri-qəhrəmanlıq nümunəsi" mövzusunda; DQİDK-nın Bakı bölgəsi üzrə şöbəsi və Sabunçu Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə 12 saylı peşə liseyində "Qeyri-ənənəvi din, təriqətlər və onların mahiyyəti" mövzusunda

**25 aprel** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Samux Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı



ilə Samux şəhər 2 saylı tam orta məktəbində "Vətənpərvər gəncliyin dini radikalizmə qarşı mübarizəsi" mövzusunda; DQİDK-nın dəstəyi ilə Lənkəran, Masallı, Xaçmaz və Qazax rayonlarında aprel döyüşlərinə həsr edilmiş tədbirlər keçirilib.

Tədbirlərdə çıxış edən natiqlər müxtəlif dini cərəyanların yaranma tarixindən, zərərli dini qrupların təbliğat metodlarından bəhs ediblər. Qeyd olunub ki, gənclərin belə radikal qrupların təsirinə düşməməsi üçün mütəmadi olaraq maarifləndirmə tədbirləri həyata keçirilir. Həmçinin bildirilib ki, milli-mənəvi, tolerant və multikultural dəyərlərimizin qorunması istiqamətində dövlət tərəfindən mühüm addımlar atılmaqdadır. Çıxışlarda vurğulanıb ki, məhz görülən bu işlər nəticəsində gənc nəsildə Vətənə məhəbbət hissi daha da artmaqla yanaşı, qeyri-ənənəvi dini təriqətlərə maraq azalıb.

Prezident İlham Əliyevin 10 yanvar 2018-ci il tarixli Sərəncamına əsasən Azərbaycan Respublikasında 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi ilə bağlı Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) tarixindən də söhbət açılan tədbirlərdə qeyd edilib ki, AXC milli ənənələrimizin qorunması, eləcə də əhalinin dini ehtiyaclarının ödənilməsi sahəsində əhəmiyyətli addımlar atıb, iki ildən az yaşamasına baxmayaraq, Azərbaycan dövlət quruluşunun bərpa olunması, onun istiqlaliyyətinin dirçəldilməsi, xalqımızın milli mənlik şüurunun oyanması baxımından mühüm işlər görüb.

Tədbirlərdə yaxın tariximizin qəhrəmanlıq səhifəsi olan Aprel döyüşlərindən də söz açılıb. Bildirilib ki, Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanılması, erməni işğalçılarının 2016-cı ilin aprelində qoşunların təmas xəttində törətdikləri silahlı təxribatların qarşısının alınması və düşmənin dinc əhaliyə qarşı hücumlarının dəf edilməsi zamanı qəhrəmancasına həlak olmuş bütün şəhidlərimizin şərəfli döyüş yolu gənclərimiz üçün bir nümunədir. Vətənimizin müdafiəsi uğrunda canından, qanından keçən qəhrəmanlarımız bizim qürurumuzdur. Qeyd edilib ki, şəhidlərin xatirəsi xalqımızın qəlbində əbədi yaşayır və onların ailələrinə dövlət tərəfindən hərtərəfli qayğı göstərilir.

Keçirilən tədbirlərdə DQİDK-nın sifarişi ilə hazırlanmış "Şəhadət" sənədli filmi nümayiş etdirilib, film ətrafında müzakirələr aparılıb və iştirakçıları maraqlandıran digər suallar cavablandırılıb.

# BÖLGƏLƏRDƏ "ŞƏHADƏT" SƏNƏDLİ FİLMİ NÜMAYİŞ OLUNUB

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) dini radikalizm və ekstremizmlə mübarizə məqsədilə silsilə tədbirlər həyata keçirir. Həmin tədbirlər çərçivəsində radikal dini təmayüllərin zərərli ideyalarına qarşı mübarizə məqsədilə kütləvi nəşrlər, o cümlədən maarifləndirici kitab, jurnal, broşürlər çap edilir, sənədli filmlər hazırlanır. Bunlardan biri də Dövlət Komitəsinin sifarişi ilə çəkilən "Şəhadət" sənədli filmidir. Filmdə Vətən uğrunda şəhadətə qovuşmuş qəhrəmanlarla yanaşı, dini fanatizm və radikalizmin təsirinə məruz qalmış, bir sıra xarici ölkələrdəki ekstremist-terrorçu silahlı birləşmələrin tərkibində döyüşmüş şəxslərdən bəhs olunur. DQİDK əməkdaşlıq etdiyi qurumlarla birgə ölkə ərazisində "Şəhadət" sənədli filminin nümayişini həyata keçirir. Aprel ayı ərzində filmin nümayişi:*



**6 aprel** – Tərtər Rayon İcra Hakimiyyəti və DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsinin birgə təşkilatçılığı ilə Tərtər rayon Sarıcalı kənd tam orta məktəbində; Füzuli Rayon İcra Hakimiyyəti və DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsinin birgə təşkilatçılığı ilə rayonun II Zobcuq qəsəbəsi 27 saylı tam orta məktəbində; Hacıqabul Rayonu İcra Hakimiyyəti və DQİDK-nın birgə təşkilatçılığı rayonun 8 saylı orta məktəbində;

**18 aprel** – DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi və Şirvan Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə şəhər 16 saylı tam orta məktəbdə;

**19 aprel** – DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi və Salyan Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə rayonun peşə liseyində; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və Tərtər Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə rayonun Qazyan kənd tam orta məktəbində;

**20 mart** – Biləsuvar rayonu M.İbrahimov adına Məktəb-Lisey kompleksində Biləsuvar Rayonu İcra Hakimiyyəti və DQİDK-nın birgə təşkilatçılığı ilə rayonun M.İbrahimov adına Məktəb-Lisey kompleksində baş tutub.

Rayon və şəhər icra hakimiyyətlərinin, DQİDK-nın əməkdaşlarının, məktəb direktorları, müəllim və şagirdlərin, eləcə də ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbirlərdə "Şəhadət" sənədli filminin əhəmiyyətinə toxunan çıxışçılar bildiriblər ki, gənclərimizin milli-mənəvi dəyərlərə bağlılıq və vətənpərvərlik ruhunda formalaşmasında bu cür sənədli filmlərin böyük təsiri var.

Qeyd olunub ki, son bir neçə ildə Dövlət Komitəsi tərəfindən dini radikalizmə qarşı fəal və məqsədyönlü maarifləndirmə işləri aparılır. Bu baxımdan DQİDK-nın sifarişi ilə hazırlanan "Şəhadət" sənədli filmi böyük əhəmiyyətə malikdir. Ekran işində bir tərəfdən Vətənin müqəddəsliyi və onun müdafiəsinin vacibliyi, şəhidlik zirvəsinin ucalığı, qəhrəmanlığın gətirdiyi fəxarət hissi təbliğ olunur, digər tərəfdən isə radikalizmin cəmiyyət, dövlət, ailə üçün hansı faciələrə səbəb olduğu real faktlarla tamaşaçılara təqdim edilir. Ölkəmizdə dini radikalizmə qarşı həyata keçirilən maarifləndirmə tədbirlərinin effektivliyinin artırılması, vətənpərvərliyin təbliği və təşviqi məqsədilə hazırlanan "Şəhadət"də vətənə sevgi ilə yanaşı, eyni zamanda dini ekstremizm bataqlığının faciələrinə diqqət çəkilir.

Tədbirlərin yekununda iştirakçıların sualları cavablandırılıb və film ətrafında müzakirələr aparılıb.



# DİNİ QURUMLARIN DÖVLƏT REYESTR MƏLUMATI

## Qeydiyyat

**Neftçala rayonu Kürqarabucaq kəndi "İmam Hüseyn" məscidi dini icması**

Qeydiyyat tarixi: 09 aprel 2018-ci il
Qeydiyyat №-si: 100118C-773
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Neftçala rayonu, Kürqarabucaq kəndi, "İmam Hüseyn" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Əhməd Telman oğlu Məmmədov

**Lənkəran rayonu Liman şəhəri "Cümə" məscidi dini icması**

Qeydiyyat tarixi: 09 aprel 2018-ci il
Qeydiyyat №-si: 100118C-774
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Lənkəran rayonu, Liman şəhəri, "Cümə" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçi: Vidadi Rafiq oğlu Qurbanzadə

**Masallı rayonu Təkdam kənd məscidi dini icması**

Qeydiyyat tarixi: 09 aprel 2018-ci il
Qeydiyyat №-si: 100118C-775
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Masallı rayonu, Təkdam kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçi: Kamil Seyfulla oğlu Hüseynov

**Saatlı rayonu Qarayevkənd kəndi "Mirismayıl ağa" məscidi dini icması**

Qeydiyyat tarixi: 09 aprel 2018-ci il
Qeydiyyat №-si: 100118C-776
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Saatlı rayonu, Qarayevkənd kəndi, "Mirismayıl ağa" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçi: Elçin Musa oğlu Nuruşov

**Şamaxı rayonu Çarhan kənd məscidi dini icması**

Qeydiyyat tarixi: 09 aprel 2018-ci il
Qeydiyyat №-si: 100118C-777
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Şamaxı rayonu, Çarhan kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçi: Cavid Nurulla oğlu Seyfullayev

**"Bakı şəhəri Yeni Apostol" xristian dini icması**

Qeydiyyat tarixi: 09 aprel 2018-ci il
Qeydiyyat №-si: 100118B-778
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Bakı şəhəri, Nərimanov rayonu, Aşıq Alı küçəsi, b. 12, M1, m1
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçi: Svetlana Albertovna Stepanova

**Masallı şəhəri "Cümə" məscidi dini icması**

Qeydiyyat tarixi: 09 aprel 2018-ci il
Qeydiyyat №-si: 100118C-779
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Masallı şəhəri, M.Füzuli küçəsi, "Cümə" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçi: Mirqabil Mirhüseyn oğlu Hüseynov

**Bakı şəhəri Suraxanı rayonu Qaraçuxur qəsəbəsi "Qaraçuxur" məscidi dini icması**

Qeydiyyat tarixi: 09 aprel 2018-ci il
Qeydiyyat №-si: 100118B-780
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Bakı şəhəri, Qaraçuxur qəsəbəsi, Ə.Mehbalıyev küçəsi, ev 58/1
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçi: İlyas Miri oğlu Nəzərov

**Şamaxı rayonu Böyük Xınıslı kənd məscidi dini icması**

Qeydiyyat tarixi: 09 aprel 2018-ci il
Qeydiyyat №-si: 100118C-781
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Şamaxı rayonu, Böyük Xınıslı kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçi: Tahir Hacıqulu oğlu Quliyev

**Salyan rayonu Yeni Uluxanlı kəndi "İmam Zaman" məscidi dini icması**

Qeydiyyat tarixi: 09 aprel 2018-ci il
Qeydiyyat №-si: 100118C-782
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Salyan rayonu, Yeni Uluxanlı kəndi, "İmam Zaman" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçi: İlqar Fərman oğlu Məmmədov

**Salyan rayonu Beşdəli kəndi "İmam Hüseyn" məscidi dini icması**

Qeydiyyat tarixi: 09 aprel 2018-ci il
Qeydiyyat №-si: 100118C-783
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Salyan rayonu, Beşdəli kəndi, "İmam

Hüseyn" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçi: Sübhan İbrahim oğlu Rzayev

**"Gəncə şəhəri Yeddinci Günün Adventistləri" xristian dini icması**
Qeydiyyat tarixi: 09 aprel 2018-ci il
Qeydiyyat №-si: 100118A-784
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Gəncə şəhəri , Kəpəz rayonu, Şəddadilər-88 küçəsi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçi: Yusif Əli oğlu Şərifov

**Xaçmaz rayonu Qobuqıraq kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 09 aprel 2018-ci il
Qeydiyyat №-si: 100118A-785
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Xaçmaz rayonu, Qobuqıraq kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçi: Heybət Əliosman oğlu Adilov

**Masallı şəhəri Ərkivan qəsəbəsi "Qızlaküçə" məscidi dini icması**
Qeydiyyat tarixi: 09 aprel 2018-ci il
Qeydiyyat №-si: 100118C-786
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Masallı şəhəri, Ərkivan qəsəbəsi, "Qızlaküçə" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçi: Səməd Hüseynxan oğlu Səmədov

**Füzuli rayonu Mahmudlu-2 kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 09 aprel 2018-ci il
Qeydiyyat №-si: 100118A-787
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Füzuli rayonu, Mahmudlu-2 kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçi: Sevindik İsa oğlu Əsgərli

**"Vineyard Azərbaycan" xristian dini icması**
Qeydiyyat tarixi: 09 aprel 2018-ci il
Qeydiyyat №-si: 100118B-788
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Bakı şəhəri, Binəqədi rayonu, Biləcəri qəsəbəsi, M.Hüseynzadə küçəsi, ev 18
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçi: Emil Bəxtiyar oğlu Pənahov

# Dəyişiklik

**Masallı şəhəri "Hacı Mirağa" məscidi dini icması**
Qeydiyyat tarixi: 07 may 2010-cu il
Qeydiyyat №-si: 100110A24 – 337
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Rüstəmov Fərail Həmdulla oğlu, Talıbov Mirəhməd Vahab oğlu, Kazımov Qasım Əhməd oğlu, Qafarov Adil Yaqub oğlu, Talıbov Xalıq Mirsəmid oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Nəcəfov Rahib Nəhmətulla oğlu, Novruzov Qorxmaz Mirzəhüseyn oğlu, Abdulhüseynov Saleh Məmmədhüseyn oğlu, Rəhimov İqbal İmran oğlu, Bağırov İbrahim İsmayıl oğlu, Kazımov Mehman Qasım oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
Dəyişikliklərin qeydiyyat tarixi: 04 aprel 2018-ci il

**Sabirabad rayonu Salmanlı kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 21 aprel 2010-cu il
Qeydiyyat №-si: 100110A2 – 305
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Kərimov Rafael Alim oğlu, Həşimov Abdulla Mirsalam oğlu, Kərimov Davud Kərim oğlu, Mənsimov Ağaxan Rufulla oğlu, Əliyev Rufulla Xanalı oğlu, Salmanov Zabil Bilal oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Əliyev Həzi Bayram oğlu, Kərimov Coşqun Alim oğlu, Kərimov Vəlhəd Davud oğlu, Ələkbərov Xəyal Tapdıq oğlu, Mənsimov Azad Ağaxan oğlu, Cəfərov Sadiq Yavər oğlu, Kərimov Aydın Əhməd oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
Kərimov Rafael Alim oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Əliyev Nəbi Fərzi oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
Dəyişikliklərin qeydiyyat tarixi: 05 aprel 2018-ci il

**Bakı şəhəri Xəzər rayonu Binə qəsəbəsi Hövsan südçülük sovxozu "İmam Həsən" məscidi dini icması**
Qeydiyyat tarixi: 11 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A2 – 82
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən dini icmanın adı "Bakı şəhəri Xəzər rayonu Binə qəsəbəsi Hövsan südçülük sovxozu "İmam Həsən" məscidi" kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, "Bakı şəhəri Xəzər rayonu Binə qəsəbəsi Hövsan südçülük sovxozu "İmam Həsən" məscidi" dini icması kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
Dini icmanın dini icmasının hüquqi ünvanı "Bakı şəhəri, Əzizbəyov rayonu, Binə qəsəbəsi, Hövsan südçülük sovxozu, "İmam Həsən" məscidi" kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, "Bakı şəhəri, Xəzər rayonu, Binə qəsəbəsi, Hövsan südçülük sovxozu, "İmam Həsən" məscidi" kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
Babayev Söhbət Yədi oğlu, Talıbov Hicran Xanlar oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Hüseynov Eldayaq Natiq oğlu, Rzayev Azər Əcəbşir oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
Talıbov Hicran Xanlar oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Hüseynov Eldayaq Natiq oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
Dəyişikliklərin qeydiyyat tarixi: 04 aprel 2018-ci il

# Ləğv olunan

**İsmayıllı rayonunun Sumağallı kənd "Cümə" məscidi dindarlarının dini icması**
Qeydiyyat tarixi: 15.08.1997-ci
Qeydiyyat №-si: 181
İsmayıllı rayonunun Sumağallı kənd "Cümə" məscidi dindarlarının dini icması təsisçilərinin 24.01.2018-ci il tarixli, 01 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.
Ləğv olunması: 23 aprel 2018-ci ildə qeydə alınıb.

**İsmayıllı rayonu Topçu kəndində fəaliyyət göstərən kənd məscidi dindarlarının dini icması**
Qeydiyyat tarixi: 28.09.1999-cu
Qeydiyyat №-si: 331
İsmayıllı rayonu Topçu kəndində fəaliyyət göstərən kənd məscidi dindarlarının dini icması təsisçilərinin 23.01.2018-ci il tarixli, 01 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.
Ləğv olunması: 23 aprel 2018-ci ildə qeydə alınıb.

**İsmayıllı rayonu Ruşan kənd dini icması**
Qeydiyyat tarixi: 24.03.2004-cü
Qeydiyyat №-si: 248
İsmayıllı rayonu Ruşan kənd dini icması təsisçilərinin 23.01.2018-ci il tarixli, 01 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.
Ləğv olunması: 23 aprel 2018-ci ildə qeydə alınıb.

**Ucar rayonu Bərgüşad kənd dini icması**
Qeydiyyat tarixi: 24.03.2004-cü
Qeydiyyat №-si: 249
Ucar rayonu Bərgüşad kənd dini icması təsisçilərinin 21.09.2017-ci il tarixli, 03 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.
Ləğv olunması: 23 aprel 2018-ci ildə qeydə alınıb.

**Sabunçu rayonu Maştağa qəsəbəsində fəaliyyət göstərən "Cümə" məscidi dini icması**
Qeydiyyat tarixi: 15.08.1997-ci
Qeydiyyat №-si: 182
Sabunçu rayonu Maştağa qəsəbəsində fəaliyyət göstərən "Cümə" məscidi dini icması təsisçilərinin 27.03.2018-ci il tarixli, 01 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.
Ləğv olunması: 23 aprel 2018-ci ildə qeydə alınıb.

**Siyəzən rayon mərkəzində fəaliyyət göstərən "Cümə" məscidi dini icması**
Qeydiyyat tarixi: 26.12.1996-cı
Qeydiyyat №-si: 137
Siyəzən rayon mərkəzində fəaliyyət göstərən "Cümə" məscidi dini icması təsisçilərinin 09.01.2018-ci il tarixli, 01 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.
Ləğv olunması: 23 aprel 2018-ci ildə qeydə alınıb.

# Elan

Bakı şəhəri Binəqədi rayon dini icmasının (24.06.2003-cü il tarixli 191 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 23 aprel 2018-ci il tarixli ümumi yığıncağında 01 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.
Bakı şəhəri Binəqədi rayon dini icmasının qeyri-kommersiya hüquqi şəxsinin adında edilmiş dəyəşikliyin dövlət qeydiyyatı haqqında 191 nömrəli, 04.05.2006-cı il tarixli şəhadətnaməsi, reyestrdən çıxarışı, ştampı, nizamnaməsinin üz qabığı itdiyi üçün etibarsız sayılır.

Bakı şəhəri Nizami rayonu Keşlə qəsəbəsində fəaliyyət göstərən "Şah Abbas" adına "Cümə" məscidi dindarlarının dini icmasının (26.02.1999-cu il tarixli 262 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 26 aprel 2018-ci il tarixli ümumi yığıncağında 01 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

Bakı şəhəri Nizami rayonu Keşlə qəsəbəsində fəaliyyət göstərən "Şah Abbas" adına "Cümə" məscidi dindarlarının dini icmasına 26.02.1999-cu il tarixində Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən verilmiş 262 nömrəli şəhadətnamə, möhür və nizamnamə itdiyi üçün etibarsız sayılır.

Ağdaş şəhəri "Hacı İsmayıl" məscidi dini icmasına Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən verilmiş 1307Ağ1-404 nömrəli, 31.07.2007-ci il tarixli şəhadətnamə, icmaya məxsus nizamnamə, möhür və ştamp itdiyi üçün etibarsız sayılır.

Astara rayonu Toradi kənd məscidi dini icması (18.08.2008-ci il tarixli, 1308As1-512 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 25 aprel 2018-ci il tarixli ümumi yığıncağında 02 nömrəli protokol ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.

CƏMİYYƏT və DİN

№ 04 (321) / APREL 2018-ci il

## Bakı və Abşeron üzrə namaz vaxtları (May - 2018)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 04:10 | 05:41 | 12:38 | 17:33 | 19:51 | 21:00 |
| 2 | 04:08 | 05:39 | 12:38 | 17:33 | 19:52 | 21:01 |
| 3 | 04:07 | 05:38 | 12:38 | 17:34 | 19:53 | 21:03 |
| 4 | 04:05 | 05:37 | 12:37 | 17:34 | 19:54 | 21:04 |
| 5 | 04:03 | 05:36 | 12:37 | 17:35 | 19:55 | 21:06 |
| 6 | 04:02 | 05:34 | 12:37 | 17:35 | 19:56 | 21:07 |
| 7 | 04:00 | 05:33 | 12:37 | 17:36 | 19:57 | 21:08 |
| 8 | 03:59 | 05:32 | 12:37 | 17:37 | 19:58 | 21:10 |
| 9 | 03:57 | 05:31 | 12:37 | 17:37 | 19:59 | 21:11 |
| 10 | 03:56 | 05:30 | 12:37 | 17:38 | 20:00 | 21:12 |
| 11 | 03:54 | 05:29 | 12:37 | 17:38 | 20:01 | 21:14 |
| 12 | 03:53 | 05:28 | 12:37 | 17:39 | 20:02 | 21:15 |
| 13 | 03:51 | 05:27 | 12:37 | 17:39 | 20:03 | 21:17 |
| 14 | 03:50 | 05:26 | 12:37 | 17:40 | 20:04 | 21:18 |
| 15 | 03:48 | 05:25 | 12:37 | 17:40 | 20:05 | 21:19 |
| 16 | 03:47 | 05:24 | 12:37 | 17:41 | 20:06 | 21:21 |
| 17 | 03:46 | 05:23 | 12:37 | 17:42 | 20:07 | 21:22 |
| 18 | 03:44 | 05:22 | 12:37 | 17:42 | 20:08 | 21:23 |
| 19 | 03:43 | 05:21 | 12:37 | 17:43 | 20:09 | 21:25 |
| 20 | 03:42 | 05:20 | 12:37 | 17:43 | 20:10 | 21:26 |
| 21 | 03:40 | 05:20 | 12:37 | 17:44 | 20:11 | 21:27 |
| 22 | 03:39 | 05:19 | 12:37 | 17:44 | 20:12 | 21:28 |
| 23 | 03:38 | 05:18 | 12:37 | 17:45 | 20:13 | 21:30 |
| 24 | 03:37 | 05:17 | 12:37 | 17:45 | 20:14 | 21:31 |
| 25 | 03:36 | 05:17 | 12:37 | 17:46 | 20:15 | 21:32 |
| 26 | 03:35 | 05:16 | 12:38 | 17:46 | 20:16 | 21:33 |
| 27 | 03:34 | 05:15 | 12:38 | 17:47 | 20:17 | 21:34 |
| 28 | 03:33 | 05:15 | 12:38 | 17:47 | 20:17 | 21:36 |
| 29 | 03:32 | 05:14 | 12:38 | 17:48 | 20:18 | 21:37 |
| 30 | 03:31 | 05:14 | 12:38 | 17:48 | 20:19 | 21:38 |
| 31 | 03:30 | 05:13 | 12:38 | 17:49 | 20:20 | 21:39 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri (*dəqiqə*):** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4**, Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5**, Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6**, Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8**, Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20**.

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

# "AZƏRBAYCANDA DÖVLƏT-DİN MÜNASİBƏTLƏRİ: TARİXİ BAXIŞ VƏ MÜASİRLİK"




Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, tarix üzrə fəlsəfə doktoru Mübariz Qurbanlının "Azərbaycanda dövlət-din münasibətləri: tarixi baxış və müasirlik" adlı kitabı nəşr edilib.

Ön sözünün müəllifi Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsinin dekanı, akademik Vasim Məmmədəliyev olan nəşrə Azərbaycanda dini sahə ilə bağlı müxtəlif mövzuları əks etdirən məlumatlar və müəllifin dövri mətbuatda çap olunan məqalələri daxil edilib. Kitabda Azərbaycanda ənənəvi dinlərin tarixindən, müstəqilliyimizin bərpasından sonra respublikada dövlət səviyyəsində milli-mənəvi dəyərlərimizin qorunması, din siyasətinin həyata keçirilməsi, dövlət-din münasibətlərinin formalaşması və inkişafı istiqamətində görülən işlər, mövcud dini durum barədə ətraflı izahlar verilib. Ulu Öndər Heydər Əliyev və onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən din siyasəti, ölkədə dini durumun nizama salınması sahəsində atılan addımlar, multikultural və tolerant dəyərlərimizlə bağlı məsələlər kitabda geniş təhlil edilib.

Nəşrdə, eyni zamanda Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı 2017-ci ilin Prezident İlham Əliyev tərəfindən ölkədə "İslam Həmrəyliyi İli" elan edilməsinə xüsusi diqqət ayırıb, onun tarixi-ictimai, ideoloji və beynəlxalq əhəmiyyətini şərh edib. Mühüm siyasi addım və qlobal humanizm aktı olan həmrəylik çağırışı istiqamətində geniş fəaliyyətə başlanılmasının nəinki respublikamız və bütün müsəlman ölkələri, bütövlükdə dünya üçün müstəsna əhəmiyyət daşıdığını vurğulayıb.

Geniş oxucu auditoriyası üçün nəzərdə tutulan kitabın dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində çalışan mütəxəssislərə, eləcə də dinşünaslara, siyasi şərhçilərə, gənc tədqiqatçılara faydalı olacağı düşünülür.

# Türkiyə kitab oxumaqda bir çox Avropa ölkəsini geridə qoyub

Türkiyə əhalisi kitab oxumağa bir çox Avropa ölkəsindən çox vaxt ayırır.

Bu barədə məlumat Avropa Statistika Təşkilatı (Eurostat) tərəfindən 23 aprel Dünya Kitab Günü ilə bağlı 2008-2015-ci illərdə 15 ölkədə aparılan tədqiqatın nəticələrində öz əksini tapıb.

Tədqiqata əsasən, gündə orta hesabla 13 dəqiqə kitab oxuyan estonlar siyahının birinci pilləsində qərarlaşıb. Sonrakı iki yeri 12 dəqiqə ilə Polşa və Finlandiya tutur. Həmçinin macarların gündə 10 dəqiqə, Yunanıstan vətəndaşlarının isə 9 dəqiqə kitab oxuduğu məlum olub.

Kitab oxumağa Lüksemburq və Almaniya sakinləri ilə eyni vaxt - gündə 7 dəqiqə ayıran türklər bu göstəriciyə görə aralarında İngiltərə, İspaniya və Niderlandın da olduğu bir çox Avropa ölkəsini geridə qoyub.

Avropada ən az kitab oxuyanlar isə fransızlar (2 dəqiqə), avstriyalılar, italyanlar və rumınlardır (5 dəqiqə).

# Depressiyadan qorunmağın ən sadə üsulu

Fiziki fəallıq istənilən yaşda depressiyadan qorunmağa yardım edir. Bunu ABŞ, Braziliya, Böyük Britaniya, Belçika, İsveç və Avstraliya alimləri açıqlayıblar.

Alimlər dünyanın müxtəlif regionlarında aparılan 49 araşdırmanın nəticəsini birləşdiriblər.

Həkimlər 7 il müddətində psixi cəhətdən sağlam olan 277 min insanı müşahidə ediblər və məlum olub ki, yüksək səviyyədə fiziki fəaliyyət göstərən insanlar cinsindən, coğrafiyasından və yaşından asılı olmayaraq, depressiyadan uzaq olurlar.

Alimlər araşdırmaların davam edəcəyini və gələcəkdə ruhi xəstəliklərin qarşısını almaq üçün insanın minimum enerji tələbatı səviyyəsini müəyyən etməyə çalışacaqlarını bildiriblər. Onlar ümid edirlər ki, müşahidələrin nəticələri sağlam həyat tərzinin təbliğinə yardım edəcək.

Araşdırmaların nəticələri Amerikanın elmi psixiatriya jurnalında dərc edilib.

# Divarlara şəkil çəkən robot-rəssam təqdim olunub



İtaliyanın "Carlo Ratti Associati" şirkəti avtonom rejimdə şaquli divarlara şəkil çəkən robot-rəssamı təqdim edib. Bu qurğu alıcıları cəlb edə bilməyən uçan dron-rəssamı əvəzləmək üçün hazırlanıb. "Scribit" adlanan yeni robot son dərəcə sadə və təhlükəsizdir. Bu, iki kabel vasitəsilə adi çərçivəyə və ya birbaşa divara asılan kiçik alüminium platformasıdır. Robot divarın səthində koordinatlar üzrə hərəkət edərək müxtəlif şəkillər çəkir.

Robotun daxilində müxtəlif rəngli dörd marker və səhvlərin silinməsi üçün rezin yerləşdirilib. "Scribit" smartfona yüklənmiş xüsusi proqram vasitəsilə idarə olunur. İstifadəçi sadəcə robotun nəyi çəkməli olduğunu və onun təsvirin hüdudlarından kənara çıxmaması üçün şəklin parametrlərini təyin etməlidir.

**Yadigar söz**

**Elmdə irəli gedib mənəviyyatda geridə qalan insan son nəticədə irəli yox, geriyə gedir.**

***Aristotel,***
*Yunan filosofu*

Baş redaktor
Səyyad ARAN

Redaksiya şurası:
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV, Raman DADAŞOV *(Məsul katib)*.

Ünvan: AZ 1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12
Telefon: 492 65 23; 437 31 15
Tel/fax: 497 15 39
492 58 29; 437 31 15
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
**Tiraj:** 1200
**Sifariş:** 355

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894